# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 66 (3390) Cümə axşamı / 1-2 iyul 2021-ci il Qiyməti 40 qəpik


# Qeydiyyat nişansız ikitəkərlilər

***Son vaxtlar paytaxt küçələrində sağa-sola şütüyən mopedlərin, motosikletlərin sayı sürətlə artmaqdadır. Qeyd edək ki, Azərbaycanda koronavirusun yayılması səbəbindən tətbiq edilən xüsusi karantin rejimi dövründə bu artım xüsusilə nəzərə çarpır. Səbəb isə onlayn sifarişlərə tələbatın artmasıdır. Yaranmış vəziyyətdə isə bəzi problemlər meydana çıxır. Belə ki, qanunvericiliyin tələblərinə görə, bəzi ikitəkərli nəqliyyat vasitələrinin idarə edilməsi üçün sürücülük vəsiqəsi tələb olunmur. Məsələn, bəzi mopedləri 16 yaşına çatan hər kəs idarə edə bilər. Bu amili nəzərə alan bir sıra şəxslər rahatlıqla moped alıb onu idarə etməyə çalışırlar. Onların arasında yol hərəkəti qaydalarını bilməyən şəxslər də var. Onlar dönmə əməliyyatlarını bilmir, sürət həddini aşır, yol hərəkəti qaydalarına əməl etmirlər. Məhz bu şəxslər öz həyatları ilə yanaşı, həm də digər sürücülərə, piyadalara böyük təhlükə yaradırlar. Bəs, görəsən, dövlət nömrə nişanı tələbi olmayan bu nəqliyyat vasitələrinin törətdiyi qəzalar zamanı məsuliyyəti kim daşıyır? Qəza törədənlərin müəyyənləşdirilməsi çətin olmur ki? Ümumiyyətlə, bu nəqliyyat vasitələrinin bazar qiyməti neçəyədir?***



## Bununla bağlı qanunvericilikdə boşluqlar var

**■ Mövzu ilə bağlı bizimlə fikirlərini bölüşən Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin bölmə rəisi, polis polkovniki Vaqif Əsədov motosiklet və moped idarəçilərinin yollarda yaratdıqları problemlərdən danışıb.**

Onun sözlərinə görə, "Yol hərəkəti haqqında" qanunda mühərrik həcmi kiçik olan nəqliyyat vasitələri ilə bağlı tələblər mövcuddur: "Həmin



tələblərə görə, mühərrik həcmi 50 kub/sm-dək olan motosikletlərə, mopedlərə və digər texniki vasitələrə qanunla dövlət nömrə nişanı verilmir. Bunları idarə edən sürücülərdən də sürücülük vəsiqəsi tələb edilmir. Bu o demək deyil ki, onlar nəzarətsiz qalmalı və öz istədikləri kimi hərəkət etməlidirlər. Bakı şəhəri və ölkə üzrə onların hərəkət etməsinə kameralar vasitəsilə nəzarət edilir. Lakin kameralarla indiki dövrdə onlara birbaşa inzibati tənbeh tədbirlərinin həyata keçirilməsi açıq etiraf edilməlidir ki, mümkün deyil. Çünki ad, soyad, idarə edilən texniki vasitənin nömrəsi və s. olmur. Ona görə burada real vəziyyət ondan ibarətdir ki, polis əməkdaşları açıq-aşkar qayda pozularkən həmin moped sürücüsünün saxlanılaraq inzibati məsuliyyətə cəlb etsinlər. Bunu da polis əməkdaşları həyata keçirirlər. Yəni kameralar vasitəsilə qayda pozuntusu aşkarlanarkən dərhal həmin ərazidə xidmət aparan polis əməkdaşına məlumat verilir və polis əməkdaşı qaydanı pozan moped, motosiklet, motoreller sürücüsünə inzibati protokol tərtib edir".

Qurum rəsmisi həmçinin vurğulayır ki, bu məsələdə təkcə yol polisi deyil, hər bir hərəkət iştirakçısı, xüsusilə kuryer fəaliyyəti ilə məşğul olan hüquqi şəxs, onun ətrafında olan əməkdaşlar moped, motosiklet sürücülərinin hərəkətinə yolboyu nəzarət etməlidir: "Bu nəzarət birlikdə olmasa, yol nəqliyyat hadisələrinin sayının artması deməkdir. Ona görə də hesab edirəm ki, təkcə Dövlət Yol Polisi deyil, aidiyyəti üzrə hər bir kəsin bu sahəyə tələbkarlığı olmalıdır".

V.Əsədov sözügedən nəqliyyat vasitələrinin sürücülərinə də müraciət edərək yaradılmış şəraitdən düzgün istifadə etmələrini tövsiyə edib: "Bakı şəhəri üzrə quraşdırılan videokameralardan görürük ki, moped, motosiklet idarə edənlər yol-nəqliyyat haqqında qanunun tələbərinə əməl etmir, onu kobud şəkildə pozurlar. Tədbirlər nəticəsində bu gün cərimə meydançalarında avtomobillərlə yanaşı, bu nəqliyyat vasitələrini də görmək mümkündür. Mütəmadi olaraq onların arasında təbliğat, maarifləndirmə işləri aparırıq. Yaxşı olardı ki, hüquqi və fiziki şəxslər də bu nəqliyyat vasitələrinini sürücüləri arasında təbliğat aparsın. Onlar düşünməsinlər ki, istədikləri kimi hərəkət edə bilərlər. Unutmasınlar ki, Bakı şəhəri və respublika üzrə kameralar vasitəsilə hərəkətə nəzarət edilərkən açıq-aşkar törədilən xətalar qeydə alınır və hər bir sürücü barəsində tədbir görülür. Bu nəqliyyat vasitələrinin sürücüləri də qayda-qanuna əməl etməlidirlər ki, ilk növbədə, özlərinin həyatlarına təhlükə yaranmasın, eyni zamanda, başqa hərəkət iştirakçılarının hərəkətinə mane olmasınlar. Təəssüflər olsun ki, moped, motosiklet sürənlər, sanki nəzarətsiz qaldıqlarını güman edib bu texniki vasitələri çox təhlükəli formada idarə edirlər. Bir daha sizin vasitənizlə onların diqqətinə çatdırır və xahiş edirəm ki, yolda diqqətli olsunlar, tələblərə uyğun hərəkət etsinlər, nə özlərinin, nə də başqalarının həyatlarına təhlükə yaratmasınlar". V.Əsədov açıqlamasında, həmçinin bu sürücülər tərəfindən yol verilən xətalardan və onların iştirakı ilə baş verən qəzalardan da söz açır: "Onlar piyadalar üçün nəzərdə tutulan səkilərdə hərəkət edir, bəzən işıqforu belə gözləmir və bununla da sürücülər, piyadalar üçün maneəyə səbəb olurlar. Bu kimi hallar tərəfimizdən açıq-aşkar qeydə alınır və tədbirlər görülür".

**■ Məsələyə münasibət bildirən nəqliyyat eksperti, hüquqşünas Ərşad Hüseynov deyir ki, yol hərəkəti qaydalarında sözügedən nəqliyyat vasitələrini idarə edənlərlə bağlı qaydalar hər kəsə aydındır:** "Məsələn, bütün işıqforların tələbləri onlara da aiddir. Onlar da müəyən manevrlər edən digər sürücülər kimi qaydalara əməl etməlidirlər. Motosiklet və moped idarə edənlərə də qayda pozuntusuna görə eyni cərimələr tətbiq edilir.


Səh. 5


### Statistika

**Bu ilin 5 ayında Bakı şəhərində yüngül xəsarətlə nəticələnən, yəni piyadanın motosiklet sürücüsü tərəfindən vurulması ilə bağlı 3 yol qəza hadisəsi baş verib. İki yol qəza hadisəsində toqquşma olub, motosiklet sürücüsü həyatını itirib.**

Eyni zamanda, təkcə motosiklet sürücüsünün də maneə dəyməsi ilə əlaqəli baş verən hadisə zamanı sürücü hadisə yerində keçinib. Deməli, Bakı şəhəri üzrə ümumilikdə 9 yol-nəqliyyat hadisəsi nəticəsində 2 ölü, 7 xəsarət halı qeydə alınıb. Bu hadisələr də moped, motosiklet və motoreller sürücülərinin kobud qayda pozuntsu nəticəsində baş verib".

MÜSAHİB

## Rusiyaya bəhanə verməməliyik



**Fəzail Ağamalı,**
Milli Məclisin deputatı

***Azərbaycan öz torpaqlarını işğalından azad edəndən sonra region yeni mərhələyə qədəm qoyub. Burada marağı olan güclər, dövlətlər Qarabağda status-kvonu bərpa etmək üçün çapalayır. Rusiya regiona nəzarət etdiyini iddia edir və sülhməramlıların iştirakı ilə Qarabağda proseslərə nəzarəti əlinə almağa çalışır. Bu gərgin prosesdə Azərbaycan və Türkiyə arasında bağlanan "Şuşa Müttəfiqlik Bəyannaməsi" regionda ümid doğuran məqam kimi önə çəkilir. Azərbaycanın müharibədənsonrakı geosiyasi durumu bu aspektdə birmənalı təhlil olunmur. Hafta.az-ın müsahibi Milli Məclisin deputatı Fəzail Ağamalı sözügedən mövzuda maraqlı fikirlər söyləyib.***

*Ermənistan bir dövlət kimi ölkəni rəzillikdən qurtarmaq istəyirsə, Azərbaycanla sülh sazişinin bağlanmasına çalışmalıdır*


Səh. 3


MÜSAHİB



**Xalid Usman Qayser,**
Pakistanın Azərbaycanda keçmiş səfiri

■ Pakistan Ermənistanı Dağlıq Qarabağı və ətraf bölgələrini işğal etdiyi üçün indiyədək tanımayıb...

■ Şəxsən mən, Azərbaycanda və azərbaycanlılar arasında keçirdiyim hər dəqiqədən zövq aldım...

■ Hər iki ölkənin diplomatları görüşdükləri pakistanlılara hörmət və sevgi ilə yanaşırlar...


Səh. 2


GÜNÜN FOTOSU...



**Ukraynada nazirlər iclasa futbol millinin formasında gəldilər...**

GÜNÜN SİTATI

*"Qarabağ məsələsində səylərimizi sıx şəkildə koordinasiya edirik"*



**Sergey Lavrov,**
Rusiyanın xarici işlər naziri

KARİKATURA




**Gələcəyə terrorist yetişdirənlər...**

## 2 İyul - Azərbaycan Polisi Günü

**Mehman Mehmanov,**
istefada olan polis polkovniki

Ayrı-ayrı əməkdaşların davranışına görə Azərbaycan polisinin, ümumiyyətlə, xalqa qarşı zorakılıq etməsi haqda fikir yürütmək doğru deyil.


Səh. 5


STATİSTİKA



**■ Bu ilin yanvar-may aylarında Bakının ictimai iaşə dövriyyəsi 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə real ifadədə 24,5% azalaraq 180,6 mln. manat olub.**

Hesabat dövründə hüquqi şəxslər üzrə dövriyyə 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 19% azalaraq 120,6 mln. manat təşkil edib. Hesabat dövründə Azərbaycanın ictimai iaşə dövriyyəsi 2020-ci ilin eyni dövrü ilə müqayisədə 19,3% azalaraq 281,2 mln. manat olub.




Səh. 4


## Ermənistanın diversantlarla bağlı vəkil oyunu

## PREZİDENTİN İŞ GÜNÜ

**Prezident İlham Əliyev Bakı şəhərinin Qaradağ rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.**



Sərəncama əsasən, Bakı şəhəri Qaradağ rayonunun Ələt, Korgöz və Lökbatan qəsəbələri ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.1.14-cü yarımbəndində göstərilmiş məbləğin 2,1 milyon (iki milyon bir yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb.

Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin, Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etməlidir.

# Kəmaləddin Heydərov Kuba səfiri ilə görüşüb



**Fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov bu gün Kuba Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Alfredo Nieves Portuondo ilə görüşüb.**

Görüşdə yeni növ koronavirusla (COVID-19) mübarizə tədbirləri çərçivəsində ölkəmizdə fəaliyyət göstərən kubalı həkim briqadasının rəhbəri Dalsy Torres Avila da iştirak edib.

FHN-in mətbuat xidmətindən hafta.az-a verilən məlumata görə, K. Heydərov qonaqları səmimi salamlayaraq, Azərbaycan və Kuba arasında ikitərəfli münasibətlərin müxtəlif sahələr üzrə davamlı olaraq inkişaf etdiyini qeyd edib. Bu çərçivədə, nazir ölkələrimizin uyğun qurumları arasında fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması sahəsində əlaqələrin genişləndirilməsinin əhəmiyyətindən danışaraq, bunun üçün böyük imkanların olduğunu bildirib, gələcəkdə kubalı gənclərin müasir standartlar səviyyəsində fəaliyyət göstərən Azərbaycan Fövqəladə Hallar Nazirliyinin Akademiyasında təhsil almaq imkanlarını xüsusi qeyd edib.

Həmçinin, ölkə rəhbərliyinin nəzarəti altında respublikada yeni növ koronavirusla (COVID-19) uğurlu mübarizə tədbirləri barədə danışan K.Heydərov bu çərçivədə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın göstərişi əsasında ölkəmizə dəvət olunmuş kubalı həkimlərin səmərəli fəaliyyətinə toxunub.

Səfir Alfredo Nieves Portuondo səmimi görüşə görə təşəkkürünü bildirərək, Azərbaycan və Kuba arasında əməkdaşlığın yüksələn xətlə inkişafını qeyd edib, fövqəladə halların idarə edilməsi sahəsində iki ölkənin uyğun qurumlarının əməkdaşlıq imkanlarından bəhs edib. Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə edilib.

# Azərbaycan təhlükəsiz ölkələr siyahısında

**Avropa Şurası Azərbaycanı COVID-19-la əlaqədar səfər məhdudiyyətlərinin tətbiq olunduğu ölkələr siyahısından çıxarmaq barədə qərar qəbul edib. Hafta.az bu barədə təşkilata istinadən məlumat verir.**



Qeyd olunur ki, siyahı epidemioloji vəziyyətə əsaslanaraq iki həftədən biri təkrar nəzərdən keçirilir. Son iclasda Avropa İttifaqı hökumətləri Azərbaycan da daxil olmaqla 11 ölkənin məhdudiyyətlərin tətbiq olunduğu ölkələr siyahısından çıxarılması barədə qərar qəbul edib.

## Diplomat

# Pakistanın Azərbaycana xüsusi münasibəti var

***Xalid Usman Qayser Pakistanın Azərbaycanda səfiri olub, həm də sıradan səfir yox, fəaliyyəti dövründə hər birimizlə dost idi, sözümüzü-sirrimizi aça bilcəyimiz diplomat idi. Yəqin, bu xüsusiyyətlərinə görə idi ki, 2004-cü ilin yanvarından 2016-cı ilin iyuluna qədər ölkəsini Azərbaycanda təmsil edib. Biz jurnalistlərə "Yox" cavabı olmayıb, nə vaxt müsahibə istəmişik, "Buyurun" deyib, açıqlama istəmişik, tez cavablayıb. Hə, yadımda ikən... çox gözəl, mehriban ailəsi də vardı. Bir dəfə xanımı Asima Qayserlə də müsahibə etmişdim. Azərbaycanın müstəqilliyi dövründə, ilk gündən Pakistanla ölkəmiz arasında münasibətlər səmimi və isti qalıb, ildən-ilə müttəfiqlik səviyyəsinədək güclənib.***



**Xalid Usman Qayser,**
Pakistanın Azərbaycanda
keçmiş səfiri

Xüsusilə də səfir Qayserin fəaliyyəti dövründə dövlətlərimiz arasında ikitərəfli münasibətlər Pakistan prezidentinin Bakıya səfəri ilə yeni dövrə qədəm basıb. Səfər zamanı, Pakistan Prezidenti müxtəlif sahələrdə ikitərəfli əməkdaşlıq müqavilələri imzalamaqla yanaşı, Heydər Əliyev Fondunun Azad Kəşmirdə və Pakistanın bəzi kəndlərində həyata keçirdiyi humanitar fəaliyyətinə görə, Pakistanın ən yüksək mükafatlarından biri ilə Azərbaycanın birinci xanımı Mehriban Əliyevanı mükafatlandırıb. Bundan əlavə, qarşılıqlı şəkildə bir sıra nazirlərin və yüksək səviyyəli hərbi nümayəndə heyətlərinin səfərləri də baş tutub.

Səfirin həyat yoldaşı, xanım Asima Qayser də yuxarıda qeyd etdiyim kimi, olduqca səmimi və fəal xanım idi. Məhz xanım Asima Qayser Bakıda olduqları müddətdə Missiya Başçılarının Həyat yoldaşları Qrupuna (HOMS) rəhbərlik edib. Birinci xanım Mehriban Əliyeva da 2016-cı ilin mart ayında Novruz münasibətilə HOMS üçün çox xüsusi tədbir təşkil etmişdi. Bu çox mehriban cütlük özləri də daxil olmaqla, azərbaycanlı dostları üçün olduqca yaxşı xatirələr qoyub. Səfir Qayser Bakıdan getdikdən tam 5 il sonra onunla dostca söhbətləşib, müsahibə etmək fürsəti qazandım. Gəlin, Azərbaycanın bu əziz və heç vaxt unudulmayacaq dostu ilə söhbətə birlikdə nəzər salaq:

- Bildiyiniz kimi, 2016-cı ilin iyul ayında Pakistanın Yunanıstandakı səfiri vəzifəsinə təyinat aldım və Bakıdan Afinaya yola düşdüm. Pakistanın Afinadakı diplomatik nümayəndəliyinə 2018-ci ilin noyabr ayınadək - super annat - təqaüd yaşına çatanadək rəhbərlik etdim. Təqaüdə çıxdıqdan sonra yenidən Pakistana qayıtdım və hazırda İslamabadda yaşayıram. O vaxtdan bəri Bakıya gəlmək fürsətim olmayıb. Buna baxmayaraq, hər zaman Azərbaycanda və bölgədə baş verənləri böyük maraqla izləməyə davam etmişəm. Əmin edirəm ki, mən və ailəm ilk fürsətdə Azərbaycana gəlməyə çalışacağıq.

***- Ümumiyyətlə, azərbaycanlı dostlarla əlaqələriniz davam edirmi? Kiminləsə üzbəüz görüşdüyünüz, telefonla danışdığınız olubmu? Səmimi deyirəm və əminəm ki,bütün dostlarınız sizin üçün darıxır?***

- Bəli, mən və həyat yoldaşım Azərbaycandakı bir çox dostlarımızla əsasən Facebook üzərindən əlaqə saxlayırıq, bəziləri ilə e-poçt vasitəsilə məktublaşırıq. ADA Universiteti və digər universitetlərin ev sahibliyi etdikləri tədbirlər barədə, eləcə də Facebook-da yazışdığımız dostlarla zaman-zaman məlumat mübadiləsi edirik.

***- Azərbaycandan gedəndə özünüzlə ən çox xatırlayacağınız və bəlkə də unutmayacağınız hansı xatirələri aparmısınız?***

- Ölkələriniz arasında xüsusi münasibətlər və qardaşlıq bağları olduğunu bilirsiniz. Pakistan Ermənistanı Dağlıq Qarabağı və ətraf bölgələrini işğal etdiyi üçün indiyədək tanımayıb. Eynilə Azərbaycan da Cammu və Kəşmir mübahisəsində Pakistanı dəstəkləyir. İllərdir, davam edən bu cür qarşılıqlı siyasi dəstək xalqlarımız arasında bir-birinə məhəbbətə çevrilib. Bakının və ya İslamabadın küçələrində gəzirsinizsə, insanlarla görüşərkən özünüzü Bakıda pakistanlı, İslamabadda və digər şəhərlərdə isə azərbaycanlı kimi təqdim edəndə qardaşlıq sevgisini mütləq hiss edirsən. Şəxsən mən, Azərbaycanda və azərbaycanlılar arasında keçirdiyim hər dəqiqədən zövq aldım. Bir çox azərbaycanlı tələbələrə həsr etdiyim əməyi, onlarla xoş ünsiyyəti unutmaq olarmı? Yadımdadır ki, Qafqaz Universitetində tələbələrə mühazirələr oxuyurdum, Bakı Dövlət və Xəzər universitetlərinin tələbələri ilə də yaxşı ünsiyyət qurdmuşum, eynilə ADA Universitetində də. Azərbaycanın müxtəlif şəhərlərinə etdiyim səfərləri də xatırlayıram, millət vəkili Qənirə Paşayeva ilə birlikdə Tovuza getməyimi xatırlayıram. Biz birlikdə Dağlıq Qarabağla təmas - sərhəd bölgələrinə də getdik. Pakistanın Milli Günü münasibətilə təqdim etdiyimiz Pakistan və Azərbaycan haqqında bir kitab yazdığını xatırlayıram. Həyat yoldaşım da həmçinin, o, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanı ona qarşı xeyirxahlığına görə xatırlayır. Övladlarımız "British School Baku"da təhsil alırdılar. Bu gün də bəzi azərbaycanlı dostları onlarla əlaqə saxlayır. Azərbaycanda keçirdiyimiz xoşbəxt illərimizi heç vaxt unutmayacağıq.

> "
> *Pakistan Ermənistanı Dağlıq Qarabağı və ətraf bölgələrini işğal etdiyi üçün indiyədək tanımayıb*

***- Azərbaycandan sonra Yunanıstanda səfir oldunuz. Ölkələrdən hansı daha yaxşıdır demirəm, sadəcə bu ölkələr arasında müsbət və mənfi fərqlər hansılardır sizcə? İstiqanlı, qonaqpərvər qardaş Azərbaycan xalqı, turizm məkanı, amma sosial sıxıntıları kifayət qədər olan Yunanıstan, fərqləri deyin lütfən...***

- Qeyd etdiyim kimi, səfirlik fəaliyyətim üçün Yunanıstan sonuncu ölkə idi. Mənim 60 yaşım tamam oldu. Pakistan qanunlarına əsasən isə bu yaşdan sonra diplomat olaraq işləməyə yol verilmir. Odur ki, istefa verərək təqaüdə çıxdım. Azərbaycan qardaş ölkədir və başqa heç bir ölkə ilə müqayisə oluna bilməz. Sizə deyə bilərəm ki, Yunanıstanda da çox uğurlu və yaxşı vaxt keçirmişəm. Yunanlar çox isti, qonaqpərvər və mehriban insanlardır. Onlar çox sağlam qida vərdişlərinə sahibdirlər və turizm sektorları kifayət qədər yüksək inkişaf edib. Düzdür, Afinada olduğum müddətdə Yunanıstan iqtisadi çətinliklərdən yaşayırdı, amma heç vaxt yunanların üzündə təbəssümü əskik görmədim. Onların əksəriyyəti çox xoş, istiqanlı və qonaqpərvərdir, lakin digər Avropa ölkələrində olduğu kimi, yunanların içində də əcnəbilərə qarşı düşmənçilik seqmenti var. Məsələn, "Qızıl Şəfəq" mənim dövrümdə Yunanıstan parlamentində üçüncü böyük siyasi partiya idi. Onlar birmənalı şəkildə əcnəbi mühacirlərə qarşı çıxırdılar. Hansı ki, həmin vaxt Yunanıstanda təxminən 70 min pakistanlı yaşayırdı. Yəni bu sayda soydaşlarım üçün problem yarana bilərdi. Bu səbəbdən də səfir olaraq əsas işim oradakı Pakistan cəmiyyətinin rifahını və təhlükəsizliyini qorumaq idi. Bəli, vaxt keçdikcə Pakistanla Yunanıstan arasında münasibətlər də yaxşılaşdı və bu gün də yaxşılaşmağa davam edir. 2019-cu il seçkilərində "Qızıl Şəfəq" Yunanıstan parlamentində heç bir yer qazana bilmədi. Bu da yunanların əksəriyyətinin müdrik, dinc və qayğıkeş insanlar olduğunu əks etdirirdi.

***- Bilirsiniz, Pakistan qardaş ölkə olduğu üçün onun səfirliyi də hər zaman bizim üçün dogma evimizdir, gediş-gəlişimiz olur zaman-zaman və bunu siz də vaxtilə görürdünüz. Maraqlıdır, media ilə eyni sıx münasibətləri başqa ölkələrdə də qura və eyni effekti ala bilirsinizmi? Əminəm ki, azərbaycanlı jurnalistlər kimi səmimi ola bilməz yunan və ya xalqların jurnalistləri...***

- Yenə təkrar edirəm: Azərbaycan da bizim üçün qardaş ölkədir, Pakistanın ona tam fərqli, xüsusi münasibəti var. Bu səbəbdən də Azərbaycan xalqını başqa xalqlarla müqayisə etmək mənim üçün çətindir. Bilirsiniz ki, dünyanın hər yerində jurnalistlər başqa millətləri öz obyektivləri ilə görürlər. Onlar əsasən öz peşə dəyərlərinə və ölkələrinin siyasi sisteminə sadiq qalırlar. Əlbəttə, aralarında kimlərsə həm də şəxsi maraqları, yaxud gündəm yaratmaq üçün, kimlərsə də rəhbərliyin tələbləri əsasında işləyir və əlbətdə, bəziləri öz işlərinin peşəkarıdır, fərdi fikirlər səsləndirə, mövqi nümayiş etdirə bilirlər. Fikrimcə, bugünkü mürəkkəb dünyamızda hər şey heç də ağ və qaradan ibarət deyil - boz rəngdə də çox şey var. Ancaq səmimi deyə bilərəm ki, nə vaxt hansı ölkəyə səfir göndərildimsə, yerli jurnalistlərlə ünsiyyət qurmaqda və onlarla görüşməkdə çətinlik çəkməmişəm. Məsələn, Afinada, müntəzəm olaraq çox səmimi atmosferdə ünsiyyət qurduğum, mənə qarşı çox mehriban olan yeddi ən yaxşı yunan media mənsubu ilə sıx əlaqəm vardı.

Bunlar müxbirlər, teleaparıcılar və analitiklər idi. Onlar hər zaman səfirlikdə özlərini rahat hiss ediblər və bunu mənim sosial səhifələrimdə də aydın şəkildə görə bilərsiniz. Fikrimcə, başqa xalqların və ya jurnalistlərin bizim, ya da ölkələrimiz və siyasi sistemlərimiz haqda nə düşündüklərindən narahat olmamalıyıq. Öz aramızda birlik yaratmalıyıq və cəmiyyətlərimizi hər vacib mövzuda sərbəst və sağlam mübahisələrə açmalıyıq. Bu, şübhəsiz həm daxili, həm də beynəlxalq aləmdə etibarımızı gücləndirməyə kömək edəcək. Hesab edirəm ki, hər bir ölkə digər ölkələr və ya insanlar tərəfindən bəyənilməsinə və ya bəyənilməməsinə baxmayaraq, özünün siyasi, iqtisadi və sosial sisteminə sahib olmaq hüququna malikdir. Hər cəmiyyət öz sürəti ilə, öz mədəniyyəti və milli dəyərləri əsasında hərəkət edir.

***- Bakıdan getdikdən sonra təyinat aldığınız ölkədə Azərbaycan və Türkiyə səfirləri ilə əlaqə saxlayırdınızmı? Ümumiyyətlə, bu ölkələrdə yaşayan və ya çalışan azərbacanlı icmasının Pakistan səfirliyi ilə əlaqəsi olubmu?***

- Yalnız səfir olaraq deyil, kiçik diplomat olduğum zamanlarda da hər sahədə türkiyəli və azərbaycanlı həmkarlarımla həmişə çox yaxşı, səmimi dostluq əlaqələrim olub. Bir səfir olaraq bu, üç ölkənin diplomatları üçün daha mütəmadi qarşılıqlı əlaqəyə çevrilir. Nə vaxt olur-olsun, hər hansı ölkədə sıradan bir azərbaycanlıya və ya türkə rast gəlsəm, mütləq görüşür, hal-əhval tuturam. Eyni münasibəti Türkiyə və Azərbaycan diplomatları da pakistanlılara göstərir. Bilirəm ki, hər iki ölkənin diplomatları görüşdükləri pakistanlılara hörmət və sevgi ilə yanaşırlar.

***- Lap çoxdan Rumıniyanın Azərbaycandakı səfirlərindən biri (O, hazırda universitet rəhbəridir) diplomatik xatirələrindən bəhs edən ikihissəli kitab yayımladı və nüxsələrdən mənə də göndərib. Orada 100 səhifə Azərbaycandakı xatirələrinə yer ayırıb. Sizin necə, diplomatik fəaliyyətinizdən bəhs edən kitab yazmaq fikriniz varmı?***

- İnşAllah!

***- Yaxın gələcəkdə, nə vaxtsa Azərbaycanda gəlmək fikriniz varmı? Əgər gəlsəniz harada olmaq, haralara getmək istərdiniz, hansı ki, neçə illərdir onların həsrətini çəkdiniz? Bilirsiniz, torpaqlarımız azad edilib, Şuşanı, Ağdamı gedib görə bilərsiniz...***

- Əvvəlcə başda Prezident İlham Əliyev olmaqla, bütün azərbaycanlı qardaşlarımı təbrik etmək istəyirəm. Azərbaycan ordusu, məhz Prezident İlham Əliyevin rəhbərliyi altında, uzun müddətdir Ermənistan tərəfindən işğal edilmiş torpaqları azad edib, əsl sahibinə qaytardı.

Bu, Azərbaycan millətinin böyük uğurudur. Şübhəsiz, fürsət tapdığım ilk məqamda çalışacağam ki, Bakıya səfər edim. Bəri başdan sizə, eləcə də bütün Azərbaycan xalqına və rəhbərliyinə firavan, təhlükəsiz, sağlam həyat və gələcək arzulayıram. "Pakistan - Azerbaijan dosti zindabad!" (Yaşasın Pakistan - Azərbaycan dostluğu!).

✍ *Vüsal Tağıbəyli*

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

Təsisçi və
baş redaktor:
Sevinc Seyidova

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.

Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000

"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X

Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Rusiya və Türkiyədən Qarabağ bəyanatı

**"Qarabağ məsələsində səylərimizi sıx şəkildə koordinasiya edirik". Bunu Rusiyanın xarici işlər naziri Sergey Lavrov Antalyada türkiyəli həmkarı Mövlud Çavuşoğlu ilə birgə mətbuat konfransında deyib.**

O bildirib ki, Bakı və İrəvan da bu məsələdə məsafə qət etmək üçün dialoqu davam etdirir. Regionda bütün nəqliyyat əlaqələrinin bərpasının əhəmiyyətinə toxunan S. Lavrov Ağdamda yerləşən Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzinin fəaliyyətini təqdir etdiklərini vurğulayıb: "Əminik ki, ümumilikdə vəziyyətin kompleks stabilləşməsi Cənubi Qafqazda nəqliyyat kommunikasiyasının açılmasına, bu regionda yerləşən ölkələrin, o cümlədən Türkiyə və Rusiyanın iştirakı ilə çoxplanlı iqtisadi əməkdaşlığın irəliləməsi səylərinə xidmət edəcək". "Rusiyalı həmkarım Sergey Lavrovla ikitərəfli münasibətlərimiz barəsində ətraflı fikir





mübadiləsi apardıq. İkitərəfli münasibətlərimizdə elə bir ciddi problem yoxdur". Bunu isə Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu deyib.

Türkiyə XİN başçısı ikitərəfli ticarət dövriyyəsinin genişləndirilməsinin zəruriliyini vurğulayıb. Pandemiya ilə mübarizədə Rusiya ilə əməkdaşlıq etdiklərini bildirən M. Çavuşoğlunun sözlərinə görə, "Sputnik V" peyvəndinin birgə istehsalı ilə bağlı iki ölkənin aidiyyəti qurumları tərəfindən müzakirələr aparılır. O, Rusiya XİN başçısı ilə regional məsələləri - Suriya, Liviya, Əfqanıstan və Qarabağı müzakirə etdiyini də qeyd edib: "Məqsədimiz bu bölgələrdə sülh və sabitliyin dayanıqlı olmasıdır".

✍ *Hafta.az*

# Rusiyaya bəhanə verməməliyik

## Müsahib

***Azərbaycan öz torpaqlarını işğalından azad edəndən sonra region yeni mərhələyə qədəm qoyub. Burada marağı olan güclər, dövlətlər Qarabağda status-kvonu bərpa etmək üçün çapalayır. Rusiya regiona nəzarət etdiyini iddia edir və sülhməramlıların iştirakı ilə Qarabağda proseslərə nəzarəti əlinə almağa çalışır. Bu gərgin prosesdə Azərbaycan və Türkiyə arasında bağlanan "Şuşa Müttəfiqlik Bəyannaməsi" regionda ümid doğuran məqam kimi önə çəkilir. Azərbaycanın müharibədənsonrakı geosiyasi durumu bu aspektdə birmənalı təhlil olunmur. Hafta.az-ın müsahibi Milli Məclisin deputatı Fəzail Ağamalı sözügedən mövzuda maraqlı fikirlər söyləyib.***



**Fəzail Ağamalı,**
Milli Məclisin deputatı

***- Fəzail müəllim, Qarabağ işğaldan azad olunandan sonra ölkənin mövcud siyasi, geopolitik durumunda hansı yeni reallıqlar meydana çıxıb? Siyasi partiyaların, bütövlükdə cəmiyyətimizin qarşısında hansı vəzifələr durur?***

- 44 günlük müharibədə Ermənistanın işğalına son qoyulması Azərbaycan tarixinə qızıl hərflərlə yazılacaq. Müzəffər Ali Baş Komandanın rəhbərliyi, igid əsgər və zabitlərimizin Ermənistan üzərində möhtəşəm qələbəsi, Ermənistan ordusunun tamamilə darmadağın edilməsi, faşizm ideologiyasına, erməni mifinə endirilən zərbə ilə regionda və Azərbaycanda fərqli, yeni durum yaranıb. Bu vəziyyət bütün mənalarda Azərbaycana üstün imkanlar qazandırıb. Azərbaycan qalib ölkədir, qalib xalqdır. 44 günlük zəfər beynəlxalq səviyyədə etiraf olunmaqda və bu reallığın Ermənistan tərəfindən nəzərə alınması ilə bağlı çağırışlar eşidilməkdədir. Şübhəsiz ki, bu, yeni bir reallıqdır. Müharibədən sonra ölkəmizin diqqəti Böyük Qayıdışın həyata keçirilməsinə yönəldilib. Bununla bağlı dövlət bütün resursların hərəkətə keçirib. Eyni zamanda regionun təhlükəsizliyi, sülhün və əmin-amanlığın təmin olunması üçün Azərbaycan Dövləti Türkiyə ilə bərabər həlledici rol oynamağa başlayıb. Bunun konkret nəticəsi kimi, Şuşada Azərbaycan və Türkiyənin müttəfiqliyini özündə ehtiva edən Şuşa Bəyannaməsini qeyd etməliyik. Bəzi ağzıgöyçəklər qəsdən faktları təkzib edərək deyirdilər ki, artıq Türkiyə proseslərdən kənardadır, regiona daxil ola bilmədi və s. Şuşa Bəyannaməsi bu cür insanların sifətinə tərs bir şillə vurdu. Türkiyə bu Bəyannamə ilə Azərbaycanla bərabər həlledici söz sahibinə çevrildi. Müharibədən sonra Azərbaycan üçün tarixi əhəmiyyət kəsb edən hadisələrdən biri də uzun illər gözlədiyimiz Müttəfiqlik Müqaviləsi oldu. Bu, bütövlükdə Azərbaycanın dövlət müstəqilliyinin, suverenliyinin təminatçısı kimi əldə etdiyimiz ciddi uğurdur.

Bütün bu proseslərdə siyasi partiyalar da kənarda qalmayıb. 2020-ci ilin Tovuz döyüşlərindən başlayaraq 44 günlük İkinci Qarabağ savaşında Azərbaycanda fəaliyyət göstərən siyasi partiyaların mütləq əksəriyyəti dövlətimizlə bərabər oldu. Xalqımızla bir oldu, ordumuzu dəstəklədi.

Bəyanatlarla, kollektiv şəkildə imzaladıqları sənədlərlə hər bir partiya öz mövqeyini vətəndaşlıq, milli maraqlar, dövlətçilik baxımından ortaya qoydu. Partiyalar təkcə bəyanatlarla kifayətlənmədi. Partiya üzvləri Vətən müharibəsində əlinə silah alaraq müharibədə iştirak etdi, qəhrəmanlıq nümunələri göstərdilər. Onların içərisində şəhidlər də oldu. Xalqımızın bir parçası kimi 44 günlük savaşda düşmənə qan uddurdular. Əminəm ki, dövlətçilik mövqeyində duran, milli maraqlardan çıxış edən partiyalar bundan sonra da dövlətimizin güclənməsi, onun maraqlarının müdafiəsi ilə bağlı fəal iştirak edəcək.

***- Ermənistan yenə atəşkəsi pozur, revanşist ideyasından əl çəkmir. Üstəlik, 10 Noyabr Bəyannaməsinə əsasən erməni silahlılarının ərazilərimizdən çıxarılması məsələsi də həll edilməmiş qalır. Hazırda vəziyyət nə yerdədir?***

- Parlament seçkilərindən sonra sərhədboyu ərazilərdə erməni silahlı qüvvələrinin mövqelərimizi atəşə tutması epizodik haldır. Bu, Azərbaycan üçün təhlükə təşkil edə bilməz. Düşmənin bu atəşinə qarşı daha ciddi səviyyədə cavablar verilir. Bu gün Ermənistanda özbaşınalıqdır. Parlament seçkilərindən sonra da siyasi böhran aradan qalxmadı, əksinə, özünün yeni mərhələsinə qədəm qoydu. Qalib gələn Paşinyana məğlub olan revanşistlərin önündə gedən qatillər - Köçəryan və Sarkisyan xuntası məğlub oldu. Bunlar məğlubiyyətlərini həzm edə bilmirlər və müxtəlif səviyyələrdə Paşinyana maneçilik törətməyə çalışırlar. Sərhədboyu zonalarda özlərinə sadiq olan generallar və zabitlər vasitəsilə təxribatlar törədib, Azərbaycanı Ermənistanla müharibəyə cəlb etməyə çalışırlar. Təxribat nəticəsində ermənilərin günahı ucbatından erməni əsgər və zabitlərinin öldürülməsi ilə xalqı Paşinyana qarşı qaldırmaq, vəziyyəti ağırlaşdırmağa çalışırlar.

Düşünmürəm ki, Kəlbəcər istiqamətində atılan bu addımlar bizim üçün hər hansı bir problem yaratsın. Bu həmlələr Azərbaycanın qəhrəman Silahlı Qüvvələri tərəfindən qətiyyətlə alınır, bundan sonra da alınacaqdır. Ola bilsin ki, Azərbaycanı müharibəyə təhrik edib, Rusiyanı və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını bu prosesə cəlb etmək istəyir. Eyni zamanda, Paşinyan dəfələrlə Fransaya müraciət edərək qoşunlarının Azərbaycanla sərhədə göndərilməsi haqqında sərsəm fikirlər söyləyib.

Bütün bunlara görə nigarançılıq keçirməyə əsasımız yoxdur. Silahlı Qüvvələrimiz gücünü-qüdrətini Ermənistana, onun müttəfiqlərinə və himayəçilərinə göstərib. Türkiyə Azərbaycanın ərazi bütövlüyünə, təhlükəsizliyinə, suverenliyinə, dövlətçiliyinə hər hansı təhlükə görərsə, dərhal özünün bütün imkanları ilə yanımızda olacaq. Ermənistanın yeganə çıxış yolu Azərbaycanla, Türkiyə ilə münasibətlərin normallaşmasından keçir. Ermənistan bir dövlət kimi ölkəni səfalətdən, rəzillikdən qurtarmaq istəyirsə, Azərbaycanla sülh sazişinin bağlanmasına çalışmalıdır.

Sülhməramlıların fəaliyyətinə gəlincə, başlıca vəzifələri ermənilərlə azərbaycanlıların kompakt yaşadıqları yerdə baş verə biləcək münaqişənin qarşısını almaqdır. Bundan başqa səlahiyyətləri yoxdur. Sülhməramlılar bir sıra hallarda səlahiyyətlərini aşırlar, daha çox ermənilərin yanında olurlar. "Laçın dəhlizi" vasitəsilə şəxsiyyətləri bilinməyən, revanşist qüvvələrin Qarabağa gəlməsinə imkan yaradırlar. Bunların hamısı yolverilməzdir. Əminəm ki, sülhməramlılar bir neçə ildən sonra "kimlərin arasında sülh yaradaq" dilemması qarşısında qalacaqlar.

Hazırda ermənilər kütləvi şəkildə yaşadıqları Azərbaycan ərazilərindən getməyə başlayıblar. Ali təhsilli müəllimlər, həkimlər, digər peşə sahibləri, az-çox qabiliyyəti olan, yaşı 50-yə qədər insanlar kütləvi şəkildə ərazidən çıxmağa başlayıblar. Ruslar Qarabağda 60 min erməni olduğunu iddia edirlər. Ölkə Prezidenti bu rəqəmi daha dəqiq deyib.

Qarabağda 30 minə yaxın erməni yaşayıb. Onun da 70-80 faizi, bəlkə də daha çoxu yaşlı insanlardır. Xüsusilə də Şuşa Bəyannaməsindən sonra ermənilər kütləvi şəkildə ərazilərimizi tərk edir. Orada keçirdiyimiz atəşfəşanlıq, Xarıbülbül festivalı, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın, ölkə Prezidenti İlham Əliyev və çox dəyərli Mehriban xanım və Əminə xanımın Şuşada düzənlənən konsert və milli bayram səhnələrini izləməsindən sonra heç bir erməni orada qalmayacaq. Ermənilər psixoz vəziyyətdədirlər. İmkan tapan kimi oradan gedirlər. Onların qarşısını Rusiyanın sülhməramlıları alır. Ermənilər olmayandan sonra, təbii ki, sülhməramlılar da olmayacaq.

***- Narazılıq doğuran məsələlərdən biri də sülhməramlıların erməniləri zorla Xankəndinə köçürməsi və onlara şərait qurması faktıdır. Bu sülhməramlılar nəyə görə vaxtilə orada yaşamış azərbaycanlıları öz yerlərinə qaytarmağa maraq, təşəbbüs göstərmirlər?***

- Bunu ancaq Xankəndidə, Xocavəndin ermənilər yaşayan hissələrində etmək olar. Ermənilərin yaşadığı ərazilərdə minalar yoxdur deyə, orada yaşamaq olar. Bu köçürülmə indiki gərgin psixoloji durumda məqbul deyil. Hələlik məğlub olan, əzilən və illər uzunu Azərbaycana qarşı düşmənçilik fəaliyyəti ilə qidalandırılan ermənilərin təxribat törətməyəcəyinə güman yoxdur. Onlar istədikləri addımı ata bilərlər, yenidən vəziyyət gərginləşə bilər. Eyni zamanda Rusiya bundan istifadə edib sülhməramlıların əlavə qüvvələrini bura gətirə bilər. Qarşıdurma üçün Rusiyanın xüsusi xidmət orqanlarının əlində kifayət qədər variant var. Buna əsas verməmək üçün ölkə Prezidentinin başlamış olduğu və davam etdirdiyi xətt olduqca doğru, müdrikdir. İşğaldan azad olunmuş ərazilərdə yollar, hava limanları, elektrik, qaz, su və sair kommunal xətlər bərpa olunur, ərazilər minalardan təmizlənir. Həmin ərazilərdə quruculuq işlərinə start verilib. Təbii ki, əhalimiz o yerlərə köçürüləcək. Bu köçürülmə 1 ildən sonra başlayacaq. 2022-ci ildə genişmiqyaslı köçürülmənin şahidi olacağıq. Əhalinin Şuşaya köçürülməsi daha tez ola bilər. Orada təhlükəsiz yaşamaq mümkündür.

***- Ermənilər iddia edir ki, sentabrda Paşinyan sülh müqaviləsinə imza atacaq və Azərbaycanın irəli sürdüyü bütün şərtlərə əməl olunacaq. Erməni mətbuatında gedən bu xəbərlər vurğulanır. Onlar "sülh müqaviləsi"ndən bərk narahatdırlar. Belə təbliğatın aparılması nəyə hesablanır?***

- Paşinyan buna məhkumdur. Ermənistanı bir dövlət kimi yaşatmaq, qoruyub-saxlamaq üçün Azərbaycanla sülh sazişi imzalanmalı, ölkəmizin ərazi bütövlüyü etiraf olunmalı, tanınmalıdır. Bu, hətta Ermənistanı müdafiə edən dövlətlər səviyyəsində də müxtəlif şəkildə ifadə olunur. Ölkə Prezidentinin dediyi kimi, sülh sazişi yoxdursa, Ermənistanla Azərbaycan arasında müharibə şəraiti qorunub saxlanılır. İndi artıq bu, Azərbaycanın ərazisində deyil, Ermənistanla Azərbaycan arasında yaranan bir situasiyadır. Bu "sülh sazişi" yoxdursa, istənilən halda sülh pozula bilər və pozularsa, Ermənistanın fəlakəti və tamamilə bir dövlət kimi sıradan çıxması deməkdir.

Əgər Ermənistanda bəzi qüvvələr tərəfindən bu, təşvişlə, top-tüfənglə qarşılanırsa, təbii ki, bunun da səbəbi var. Bu insanlar revanşistlərdirlər və heç bir halda Azərbaycanın əzəli, tarixi ərazisi olan Qarabağın dağlıq hissəsinin Azərbaycanın yurisdiksiyasına keçməsini istəmirlər. Halbuki bu məsələ 44 günlük müharibədə öz həllini tapdı. Cənab Prezident də qeyd etdi ki, status yoxdur, birdəfəlik cəhənnəmə gedib və heç bir statusdan söhbət gedə bilməz.

> “
> *Ermənistan bir dövlət kimi ölkəni rəzillikdən qurtarmaq istəyirsə, Azərbaycanla sülh sazişinin bağlanmasına çalışmalıdır*
>
> *Türkiyə təhlükə görərsə, dərhal özünün bütün imkanları ilə Azərbaycanın yanında olacaq*
>
> *İqtidar-müxalifət dialoqu formatında yenidən bir yerə toplaşmağa ciddi zərurət yoxdur*

Biz 3 min şəhidi ona görə vermədik ki, təzədən ora status verək. Bu qədər şəhidi ona görə verdik ki, cənab Prezident demişkən, tarixi problem bütün hallarda aradan çıxsın. Heç bir halda münaqişə təkrarlanma şansı və imkanı qazanmasın.

***- Vladimir Putin IX Moskva konfransında "Regionda vəziyyətin stabilləşməsi bizim məsuliyyətimiz daxilindədir və biz bu vəziyyətə nəzarət edirik", - fikirləri ilə dünyaya "Qafqaz mənimdir yaxınlaşmayın" mesajını verdi. Rusiyanın regiondan əl çəkmək istəmədiyi Putinin simasında hər dəfə region dövlətlərinə bəyan olunur.***

- Putin Baltikyanı ölkələri çıxmaq şərtilə keçmiş SSRİ respublikaları üzərindəki nəzarətini itirmək fikrində deyil. Bunun üçün ən müxtəlif variantlara əl atır. Özü ilə eyni genetik kodları daşıyan Ukraynanın başına nə oyunlar gətirdiyini görürük. Yəni Rusiya postsovet məkanında mövqeyini qoruyub saxlamaq üçün hər variantdan istifadə edib. Yeri gələrsə, hərbi müdaxiləyə də əl atıb. Necə ki, vaxtilə Gürcüstana belə bir müdaxilə oldu, necə ki, Ukraynanı-Krımı işğal etdi... Ermənistan Rusiyanın forpostudur. Onu bu günə qədər himayə edən, yaşadan da odur. Rusiya olmasa bu gün Ermənistan dövləti olan deyil. Maraqlıdır, Rusiya bu imperiya gücünü nə qədər qoruyub saxlayacaq? Düşünürəm ki, Rusiyanın onu qoruyub-saxlamaq imkanları o qədər də böyük deyil. Yeltsinin dövründə Rusiya tamam bərbad vəziyyətdə, dağılmış, insanlarının yaşamaq imkanları olmayan durumda idi. Putin gəldi və bu dövləti qaldırdı. Dünyanın güc dövlətləri artıq Rusiya ilə hesablaşmağa məcburdur. Putinin bu siyasəti nə qədər davam edə bilər?!.

***- Müharibələr özündən sonra da çoxlu problem yaradır. Müharibədən sonra qazilərin sağlamlıq məsələsi, əlillik dərəcəsinin təyin edilməsi, əlilliyin verilməsi ətrafında da çoxlu sayda narazılıq və bu istiqamətdə müzakirələr başladı. Sosial şəbəkələrdə, mətbuatda qazilərin özlərinin şikayətləri ilə rastlaşırıq. Bu məsələr necə həll olunur?***

- Şəhid ailələri, şəhidlər və qazilər bizim başımızın tacıdır. Şərəf və qürur mənbəyimizdir. 44 günlük müharibədə onların hesabına qalib gəldik. Onlara hörmət etmək hər bir vətəndaşın, hər bir məmurun müqəddəs borcudur. Məmur başa düşməli, anlamalı və qəbul etməlidir ki, məhz onların tökülən qanları hesabına o, yüksək vəzifədə oturub. Arabir məmurlar tərəfindən incidilən qazilərimiz olur, bir sıra hallarda şəhid ailələrimiz diqqətdən kənarda qalır.

Ölkə Prezidenti, 1-ci vitse-prezident Mehriban xanım şəhid ailələrinə, qazilərə, həm də bütün müharibə iştirakçılarına yüksək səviyyədə qayğı və məhəbbət dolu münasibət göstərirlər. Bunların hamısı göz önündədir. Ona görə də əlillik dərəcəsinin verilməsində də çox diqqətli olmaq lazımdır. Bu, çox həssas sahədir. Orada addım atılarkən onun verə biləcəyi nəticələr göz önünə gətirilməlidir. Ona görə də bu gün sosial şəbəkələrdə, ən müxtəlif səviyyələrdə əlilliyin verilməsi, qazilərlə, şəhid ailələri ilə bağlı özünü göstərən bütün epizodik məqamlar aradan qalxmalıdır. İcra başçılarından tutmuş, bütün müvafiq nazirliklər, nazirliyin hər bir əməkdaşı bunu ciddi şəkildə nəzərə almalıdır.

***- Bu gün iqtidar-müxalifət partiyaları arasında siyasi dialoqun davam etdirilməsi istiqamətində hansı yeni addımlar atılır? Məlumdur ki, məhz sizin təşəbbüsünüzlə iqtidar-müxalifət arasında dialoq, dəyirmi masa keçirilmişdi. Müxalifət belə iddia edir ki, iqtidar müxalifətlə daha isti dialoq mühiti formalaşdırmalıdır. Bu istiqamətdə nə kimi yeniliklər gözlənilir?***

- Qeyd edim ki, 2019-cu ilin sentyabrında baş tutan həmin iqtidar-müxalifət dialoqu çox səmərəli keçdi. Belə bir dialoqun təşəbbüskarı kimi çıxış etdim və onun reallaşmasına nail oldum. Biz nə bilirdik ki, ondan bir il sonra müharibə başlayacaq, tamam fərqli bir situasiya yaranacaqdır. Hətta mən deyərdim ki, sentyabrda keçirilən iqtidar-müxalifət dəyirmi masası sonradan iqtidar-müxalifət münasibətlərində önəmli rolunu oynadı.

Müharibə və müharibədənsonrakı dövrdə biz dialoqu daha fərqli bir formatını görməkdəyik. Bu, ilk növbədə siyasi partiyaların mütləq əksəriyyətinin taleyüklü məsələlərlə bağlı birgə bəyanatla çıxış etməsi və ayrı-ayrı platformalardan birgə və fərdi şəkildə dövlətçilik mövqeyindən çıxış etməsidir.

Bundan sonra da ən müxtəlif platformalarda birgə olmalıyıq. Bu, dəyirmi masalar şəklində də ola bilər, dialoq formatında da, ayrı-ayrı telekanallar vasitəsilə müxalifətin, iqtidarın mövqeyində duran partiyaların funksioner və ya rəhbərlərinin müxtəlif platformalardan çıxış edib öz fikirlərini ifadə etməsi formatında da ola bilər. Hələlik 2019-cu il sentyabrında keçirilən iqtidar-müxalifət dialoqu formatında yenidən bir yerə yığışmağa ciddi zərurət yoxdur. Əgər ehtiyac olarsa, təbii ki, hətta əvvəlkindən daha yüksək səviyyədə belə bir dialoq keçirilə bilər.

***- Son vaxtlar Milli Məclisin deputatı Ramil Həsən və Vəkillər Kollegiyasının sədr müavini Muxtar Mustafayev arasında baş verən mübahisə gündəm olub. Məlumdur ki, deputat Ramil Həsən maska taxmamağa görə cərimələndi, vəkilə xəbərdarlıq olundu. Məsələnin Milli Məclisin intizam komissiyasına çıxarılmasına zərurət varmı?***

- Məsələnin bütün detalları ilə tanış deyiləm, amma kütləvi informasiya vasitələrində gedən məlumatlardan görünür ki, deputatla vəkilin arasındakı mübahisə birinin ailə problemi motivi əsasında yaranıb. Vəkil uşağın öz atası ilə görüşməsi ilə bağlı məsələ qaldırıb və valideyn statusu daşıyan Ramilin qaldırılan məsələyə etirazından sonra mübahisə yaranıb. Bu mübahisə qarşıdurma, əlbəyaxa dava ilə nəticələnməyib. Sadəcə olaraq mübahisə olub və hərə öz fikrində qalıb. İndi hansı birimizin ailəsində bu və ya digər məsələlərin ətrafında mübahisələr olmur ki? Ailədə ərlə-arvad arasında, oğulla-ata, bacı-qardaş arasında, ana ilə övladlar arasında fərqli şəkildə mübahisələr olur. Milyardlarla insanın milyardlarla fərqli fikirləri olur. Ola bilər ki, Ramil Həsənin ailəsində olan məsələ də onlardan biridir. Bunun bu dərəcədə gündəmdə saxlanmasını da başa düşə bilmirəm. Dəfələrlə məsələ qaldırırlar ki, hadisə intizam komissiyasında müzakirə olunmalıdır. Mən də bildirirəm ki, bu məsələnin komissiyada müzakirəyə olunmasına əsas yoxdur.

O ki qaldı deputatın maska taxmamasına, buna görə o, cərimə olunub və cərimə ilə razılaşıb, cəriməsini də ödəyəcək. Bəli, qanun hamı üçün keçərli olmalıdır.

*✍ Tahirə Qafarlı*



# Heç kim Qarabağda böhranın inkişafını istəmir

**"Heç kim Qarabağda böhranının inkişaf etməsində maraqlı deyil". Bunu Rusiya Prezidenti "Birbaşa xətt" verilişində Rusiya vətəndaşlarının suallarını cavablandırarkən deyib.**

V. Putin heç kimin - nə Ermənistanın, nə də Azərbaycanın Qarabağda böhranın inkişafında maraqlı olduğunu bildirib: "Rusiya ciddi böhranın nizamlanmasında müəyyən rol oynayıb. Heç kəs bu böhranın inkişaf etməsində maraqlı deyil. Nə Azərbaycan, nə də Ermənistan, nə də ki, Dağlıq Qarabağın sakinləri... Məsələnin digər tərəfi budur ki, əgər hamımız dinc və mehriban şəkildə yaşasaq, insanların həyatını yaxşılaşdırmaq üçün hər cür şərait yaradacağıq. Üstəlik, yalnız təhlükəsizlik sahəsində deyil, həm də mövcud şəraitdə. Sözsüz ki, Qarabağda yaşayan insanların normal yaşayışı, iqtisadi və sosial inkişafına yüksək səviyyədə ehtiyacı var. Hər zaman silahlı münaqişənin başlanacağı həyəcanı ilə yaşamaq mümkün deyil.

> *Əgər hamımız dinc və mehriban şəkildə yaşasaq, insanların həyatını yaxşılaşdırmaq üçün hər cür şərait yaradacağıq*

Biz bunu gözəl başa düşürük". V. Putin deyib ki, bunu Ermənistan və Azərbaycanın rəhbərləri də başa düşür: "Bəli, problemlər həqiqətən çox yığılıb. Normal infrastrukturun qurulması problemi mövcuddur. Azərbaycanla Ermənistan arasında dövlət sərhədinin müəyyən olunması məsələsi var, harada ki, heç vaxt dövlət sərhədi olmayıb. Bu, ancaq iki müttəfiq respublika arasında inzibati sərhəd olub. Biz indi bu işin həyata keçirilməsi prosesindəyik. Rusiya, Azərbaycan və Ermənistandan ibarət xüsusi üçtərəfli qrup yaratmışıq. Regionda normal münasibətlərin bərpa olunması üçün hər şeyi edirik. Bu işdən faydalananlar sözsüz ki, Dağlıq Qarabağın sakinləri olmalıdır. İstərdim, düşünüm ki, onilliklər ərzində yığılıb qalan bütün çətinliklərə baxmayaraq, belə də olacaq".

# BMT turizmlə bağlı iqtisadi itkiləri hesablayıb

**Turizm sektorunda koronavirus pandemiyasının səbəb olduğu tənəzzül 2021-ci ildə dünyada ümumdaxili məhsulun 1,7-2,4 trilyon azalması ilə nəticələnə bilər.**

Bu proqnoz BMT-nin Ticarət və İnkişaf üzrə Konfransının Cenevrədə dərc olunan hesabatda əksini tapıb. "Cari ilin ikinci yarısında beynəlxalq turizm sahəsi canlanacaq, buna baxmayaraq 2021-ci ildə 2019-cu ilə nisbətən 1,7 - 2,4 trilyon dollarlıq zərər gözlənilir", - deyə ekspertlər bildiriblər. Hesabatda vəziyyətin bir neçə



mümkün inkişaf ssenarisi əks olunub. Ən pessimist ssenariyə görə, bu il beynəlxalq səyahətlərin miqdarı 75 faiz azalacaq.

Bu halda turizm sektoru 948 milyard dollar itirəcək, dünyanın ümumdaxili məhsulunun həcmi isə 2,4 trilyon dollar azalacaq. İkinci ssenari turizm səfərlərinin təxminən 63 faiz azalmasını və qlobal ümumdaxili məhsulun 1,7 trilyon dollar itirməsini nəzərdə tutur. Üçüncü ssenariyə görə, koronavirusa qarşı vaksinasiya səviyyəsinin aşağı olduğu ölkələrə 75 faiz az insan səyahət edəcək, əhalinin əhəmiyyətli hissəsinin peyvənd olunduğu ölkələrdə isə turizm axını cəmi 37 faiz azalacaq. Bu halda dünya iqtisadiyyatı 1,8 trilyon dollar zərərlə üzləşəcək.

# Ermənistanın diversantlarla bağlı vəkil oyunu



***Erməni diversantların "hərbi əsir" kimi azad olunması üçün cəhdlər edən Ermənistan hökuməti, indi də onları məhkəmədə «müdafiə etmək» üçün öz vəkillərini Azərbaycana göndərmək üçün təbliğat aparır. Ermənistan vəkillər palatası bəyanat yayıb ki, əgər valideynlər müraciət edərsə, erməni vəkillər Azərbaycana səfər edib Bakıda məhkəməsi gedən diversantlara hüquqi yardım göstərə bilər. Erməni vəkillər bunun beynəlxalq konvensiyaya əsasən mümkün olduğunu deyirlər.***

Erməni vəkillərin Azərbaycana gəlib diversantları müdafiə etməsi Azərbaycan qanunvericiliyi ilə nə dərəcədə mümkündür? Ümumiyyətlə hər hansı xarici vəkil xarici vətəndaşın müdadiəsi üçün gəlib prosesdə iştirak edə bilərmi? Hafta.az-a açıqlama verən Azərbaycan hüquqşünasları erməni vəkillərinin bəyanatına hüquqi aspektdən qiymət veriblər.

■ **Hüquqşünas Səməd Vəkilov "Həftə içi"nə açıqlamasında bildirib ki, Azərbaycan Respublikasının Cinayət Qanunverciliyinə əsasən cinayət işində müdafiəçi qismində yalnız Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvləri iştirak edə bilər.** "Vəkillər və vəkillik fəaliyyəti haqqında qanuna görə Azərbaycan Respublikasının vətəndaşları Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü ola bilər. Odur ki, erməni vəkillərin Azərbaycan məhkəməsinə müdafiə üçün qoşulması mümkün deyil.

■ **Azərbaycan Vəkillər Kollegiyasının üzvü, hüquqşünas Aqil Layıc bildirir ki, bir ölkədə xarici vətəndaşın, xarici vəkil tərəfindən müdafiə olunması təcrübəsi nəinki Azərbaycanda, dünyanın heç bir yerində yoxdur, bu mümkün də deyil.**

"Azərbaycanla Ermənistan arasında vəkillik statusunun tanınmasına dair heç bir razılaşma yoxdur. Necə ki, Azərbaycan vəkilləri gedib Ermənistanda hər hansı müdafiə işi ilə məşğul ola bilmir, erməni vəkilləri də bura gələ bilməz. Xatırlayırsınızsa, Azərbaycan vəkilləri Ermənistanda Dilqəmlə Şahbazın məhkəmə prosesində iştirak etməmişdi. Bu, qanunla mümkün olmadığı üçün Azərbaycan tərəfi müdafiənin təşkili ilə bağlı heç cəhd də etmədi. Azərbaycan qanunlara hörmət edən bir dövətdir. Ermənilərin bu bəyanatı isə populizmdən başqa bir şey deyil. Qanun erməni vəkillərin Azərbaycan məhkəməsinə gəlib müdafiədə iştirak etməsinə imkan vermir. Nəinki Azərbaycan, heç Gürcüstana, hətta yaxın münasibətdə olduqları Rusiyaya da getmək imkanları yoxdur. Bir sözlə, cinayət işində təqsirli bilinən erməni məhkumlar yalnız Azərbaycan Vəkillər Kollegiyasının üzvləri olan vəkillər tərəfindən müdafiə oluna bilər. Avropa Birliyində belə bir ölkədə lisenziyası olan vəkil digər ölkədə vəkillik edə bilməz. Hər bir ölkənin özünə uyğun sertifikasiyası olur".

> *"*
>
> *Erməni vəkillərin Azərbaycan məhkəməsinə müdafiə üçün qoşulması mümkün deyil*
>
> ---
>
> *Ermənilərin bu bəyanatı papulizmdən başqa bir şey deyil*
>
> ---
>
> *Ermənistanda Vəkillər Kollegiyasının sədri siyasətlə məşğuldur*
>
> ---
>
> *İndiki halda Ermənistan iddia edə bilər ki, vətəndaşlarının yaxşı müdafisəni qurmaq üçün kənardan vəkil gəlməlidir*

Hüquqşünas hesab edir ki, diversantların məhkəmə prosesi mətbuata tam açıq və şəffaf keçirildiyi üçün, ermənilər ancaq müşahidəçi qismində iştirak edə bilərlər. Bunun üçün isə müəyyən şərtlər ödənməlidir.

■ **Hüquqşünas Əliməmməd Nuriyev bildirir ki, digər ölkələrin Vəkillər Kollegiyası üzvlərinin Azərbaycanda müdafiəni həyata keçirməsi üçün qanunvericilikdə hər hansı bir norma yoxdur:**

"Ermənistanda Vəkillər Kollegiyasının sədri siyasətlə məşğuldur və baş nazir Paşinyan hökumətinə qarşı açıq şəkildə siyasi bəyanatlar verməklə yadda qalıb. Müharibə dövründə də onun insan hüquqlarını qoruyan bir şəxs yox, təcavüzə, müharibə cinayətlərinə haqq qazandıran bir şəxs olduğunu müşahidə etdik.



**Səməd Vəkilov,**
hüquqşünas



**Aqil Layıc,**
Azərbaycan Vəkillər Kollegiyasının üzvü, hüquqşünas



**Əliməmməd Nuriyev,**
hüquqşünas



**Ələsgər Məmmədli,**
hüquqşünas

Ona görə də belə bir şəxsin rəhbərliyi altında olan kollegiyada insan hüquq azadlıqlarının qorunması ilə bağlı verilən bəyanat növbəti şou istiqamətində olan fəaliyyətdir. Bunu ciddi bir yanaşma hesab etmirəm. Hesab edirəm bu siyasi şoudan başqa bir şey deyil". Ə.Nuriyev bildirib ki, Azərbaycan Vəkillər Kollegiyasının üzvləri qanunvericilikdə nəzərdə tutulmuş qaydada təqsirləndirlən şəxslərin hüquqlarını yetərli qədər müdafiə edirlər.

"Azərbaycanda erməni diversantlarına, terrorçularına qarşı aparılan məhkəmə prosesi çox şəffaf, çox açıq keçir. Hər gün o prosesi izləmək imkanımız olur. Orada iştirak edən vəkillərin də öz müvəkkillərinin hüquqlarının qorunmasını yüksək şəkildə həyata keçirdiyini görürük. Vəkillərimiz öz vəzifələrini Avropa İnsan Haqları konvensiyasına uyğun olaraq həyata keçirirlər. Bu prosesdə siyasi müdaxiləyə ehtiyac yoxdur. Burada şəxslər müəyyən cinayət əməllərinə görə təqsirləndirilib və onların əməlləri məhkəmədə qiymətləndirəcək. Proses açıqdır və iştirakla bağlı heç bir maneə yoxdur, lakin Covid 19-la bağlı insan sayında məhdudiyyət var. Ermənilərin müşahidəçi qismində Azərbaycana gəlməsi isə texniki məsələdir. Azərbaycanla Ermənistan arasında diplomatik əlaqələr yoxdur. Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımır. Ermənilər Azərbaycana yalnız müəyyən qaydalara riayət etməklə gələ bilərlər".

■ **Hüquqşünas Ələsgər Məmmədli də həmkarlarının mövqeyini təkrarladı:**

- Azərbaycan qanunvericiliyində "Vəkil, vəkillər və vəkillik haqqında" qanunun 4-cü maddəsində deyilir ki, Azərbaycan Respublikası Vəkillər Kollegiyası üzvlüyünə qəbul olunan və vəkil statusunda tanınan şəxs vəkillik fəaliyyətini həyata keçirə bilər. Bu o deməkdir ki, şəxsin seçəcəyi vəkil Azərbaycan Vəkillər Kollegiyasınln üzvü olmalıdır və kənardan gələn vəkil onu prosesdə rəsmi şəkildə təmsil edə bilməz.

"Müdafiə hüququ Konstitusiya və konfidensial hüquqdur. Hər kəsin hüquqi müdafiəsini təmin etməsi üçün istədiyi, seçdiyi vəkilə müraciət etmək hüququ var. Bu həm Azərbaycan Konstitusiyasında, Avropa İnsan Haqları Konvensiyasında, həm də Vəkillik Haqqında Qanunda yazılıb. Məsələyə bu aspektdən baxsaq, şəxs öz müdafiəsi üçün vəkil seçə bilər. Amma önəmli olan məsələ vəkilin kim olmasıdır. Beynəlxalq müstəvidə fərqli təcrübələr var. Xatırlayırsızsa, Ramil Səfərov Macarıstanda mühakimə olunanda Azərbaycandan Adil İsmayılov onun vəkili idi və prosesə gedirdi. Əlbəttə, Ramil Səfərovun vəkili var idi, Adil İsmayılov sadəcə köməkçi funksiyasını yerinə yetirirdi. Azərbaycan reallığında bundan öncə "Lapşin prosesi" var idi. Lapşin hadisəsində də Rusiyadan hansısa vəkil prosesə qatılmaq istəmişdi, prosesdə iştirak etmişdi. Söhbət rəsmi iştirakçılıqdan deyil, daha çox qeyri-rəsmi hüquqi yardımdan getdi".

Hüquqşünas bildirir ki, Azərbaycanın indiki qanunvericiliyi Ermənistandan gələcək hər hansı bir vəkilin prosesdə təkbaşına kimisə müdafiə etmsinə imkan vermir.

"İndiki halda Ermənistan iddia edə bilər ki, vətəndaşlarının yaxşı müdafisəni qurmaq üçün kənardan vəkil gəlməlidir. Hüquq müdafiəsində şəxsin milliyyəti vacib deyil, önəmli olan peşəkarlığıdır. Azərbaycanda kifayət qədər tərəfsiz, peşəkar vəkillər var. Azərbaycanda milliyyəti yəhudi, rus olan Azərbaycan vətəndaşı vəkillərimiz də var. Əgər ermənilər azərbaycanlılara çox güvənmirsə, qeyri-türk Azərbaycan vətəndaşı olan vəkillərdən də tuta bilərlər. Digər tərəfdən, Azərbaycanda əgər şəxs özünə vəkil tuta bilmirsə, dövlət hesabına vəkil tuta bilir. Bu da dövlətin hüquqi öhdəliyidir. Məsələyə bu aspektdən yanaşsaq, əgər özlərinə vəkil tuta bilmirlərsə, məhkumlar dövlət hesabına pulsuz vəkillə təmin ediləcəklər. Burada da hüquqi baxımdan bir boşluq görmürəm".

✍ ***Tahirə Qafarlı***

# "Özünü doğrultmayan siyasi partiyaları zaman silib atacaq"

**Azərbaycanın mövcud siyasi, geopolitik durumu siyasi partiyaların qarşısında müəyyən vəzifələr qoyur. Partiyalar hələ də öz "qlaf"ıdan çıxa bilmir, bir çox hallarda məsuliyyətsiz, ittihamçı davranışlarını davam etdirirlər. Vaxtilə ölkənin siyasi həyatında aktivliyi ilə diqqət çəkən bəzi partiyalar durğunluqdan çıxmaq üçün yenə də zəifliklərinin günahını iqtidarın və xalqın üzərinə yükləyirlər.**

Ənənəvi müxalifətin keçdiyi bu yoldan çıxa bilməyən gənc siyasi partiyalar belə bir şəraitdə müxalif siyasi düşərgəyə hansı yeniliyi gətirə biləcək? Maraqlıdır, ofislərin verilməsi, qeydiyyata alınmaları partiyaları nə qədər aktivləşdirə bilib?

■ **Rəsmi qeydiyyata alınmayan Azərbaycan Yüksəliş Partiyasının sədri Anar Əsədli "Həftə içi"nə açıqlamasında mövcud siyasi, geopolitik durumda siyasi partiyaların vəzifələrinə neytral mövqedən yanaşdı.** Onun fikrincə, müharibə dövrü istisna olmaqla, siyasi partiyaların vəzifəsi hakimiyyətin qüsurlarını güzgü kimi göstərmək, yanlışlarını demək və öz proqramlarını gerçəkləşdirmək üçün hakimiyyətə gəlməkdir. "Yüksəkiş Partiyası olaraq düşünürük ki, hər bir siyasi partiya öz daxili imkanları çərçivəsində lazımi fəaliyyəti göstərir.



**Anar Əsədli,**
Yüksəliş Partiyasının sədri

Siyasətçini yetişdirən də, əvəzləyən də, tarixin arxivinə göndərən də xalqdır. Bu, süni surətdə kiminsə və ya kimlərinsə istəyi ilə həyata keçirilə bilməz".

Xalqın siyasi proseslərdə aktivlik nümayiş etdirmədiyini deyən A.Əsədlinin fikrincə, özünü doğrultmayan siyasi partiyaları zaman özü silib-atacaq.

"Müxalifət dövlətin strateji sütunudur. Ona görə də partiyaların fəaliyyətinə dövlət dəstək verməlidir. Burada hakimiyyət və dövlət anlayışlarını ayırmaq lazımdır. Demokratik cəmiyyətlərdə hakimiyyətlər başa düşürlər ki, partiyaların fəaliyyətinə maddi, texniki maneə göstərmək, qadağalar qoymaq bir dövlətin gələcəyinə vurulan zərbədir. Bunu edən hakimiyyətlər dünyada avtoritarizmin göstəricisi qəbul edilirlər. Bu baxımdan da siyasi dialoqun inkişafını ölkəmizdə vacib hesab edirəm, amma vurğulayım ki, bu dialoq sadəcə texniki məsələlərin həllinə yönəlməməlidir.

Müəyyən ideyalar var ki, onların gerçəkləşməsi zaman alır. Siyasi partiyanın missiyası odur ki, bunu unutdurmasın. Zəfərə aparan yol inamdan keçir. Bu, bir növ, son 30 ildə televiziya ekranlarında işğaldan azad olunana qədər hər gün hava proqnozunda həmin ərazilərin mütəmadi olaraq adlarının çəkilməsinə bənzəyirdi. İlk baxışdan çox mənasız görünsə də, əslində, qalibiyyətə olan inamın göstəricisi idi ki, bir gün belə olacaq".

✍ ***Tahirə Qafarlı***

## XƏBƏRİNİZ OLSUN...



■ Nazirlə Kabineti "Görkəmli elm xadimi Lütfi Zadənin xatirəsinin əbədiləşdirilməsi haqqında" qərar verib. Qərara əsasən, Bakı şəhərinin Nəsimi rayonunda yerləşən Texniki-humanitar liseyə Lütfi Zadənin adı veriləcək. Bakı Şəhər İcra Hakimiyyəti Lütfi Zadənin Bakı şəhərində yaşadığı binaya (Əlövsət Quliyev küçəsi, 79) xatirə lövhəsinin vurulmasını təmin etməlidir.

---

■ Azərbaycan Milli Konservatoriyasının Muğam kafedrasının müdiri, Xalq artisti Arif Babayev müalicə üçün Türkiyəyə aparılıb. Bu barədə APA-ya Xalq artistinin oğlu Yaşar Babayev məlumat verib. O, A.Babayevin iki gün öncə Türkiyəyə yollandığını deyib: "Bilirsiniz ki, atam ötən il insult keçirmişdi. Səhhətində hazırda ciddi problem yoxdur. Sadəcə növbəti müayinə və müalicə üçün gedib".

---



■ Ermənistan dövləti ekoloji terror nəticəsində işğaldan azad edilmiş ərazilərimizdə ekologiyaya ciddi zərbə vurub. Bunu ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev "Karabakh.Center" internet resursunun təqdimat mərasimi zamanı deyib. O qeyd edib ki, Ermənistan tərəfindən işğaldan azad edilmiş ərazilərimizdə təbii sərvətlərin talan edilməsi ekoloji balansın pozulmasına gətirib çıxarıb: "Qarşımızda işğaldan azad edilmiş ərazilərimizdə təbiətin bərpa edilməsi kimi böyük məsuliyyət durur".

---

■ Müdafiə Nazirliyi Vətən müharibəsində itkin düşmüş şəxslərin yeni siyahısını yayıb. İyunun 30-dək itkin düşmüş hesab olunan 8 nəfərin foto şəkilləri, adları, soyadları, hərbi rütbəsi və doğum tarixi haqqında məlumat təqdim olunub. "İtkin düşmüş hesab olunan hərbi qulluqçuların tapılması və identifikasiyası üzrə işlər davam etdirilir", - nazirlikdən bildirilib.

---



■ Rusiyanın Baytarlıq və Fitosanitar Nəzarəti üzrə Federal Xidməti ("Rosselxoznadzor") iyulun 1-dən etibarən Azərbaycanın daha 11 müəssisəsinə Rusiyaya pomidor tədarük etməyə icazə verib. Qərar birgə video-müayinələr zamanı seçilən məhsul nümunələrinin karantin fitosanitar ekspertizasının nəticələrindən sonra, həmçinin Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) zəmanəti ilə verilib.

---

■ Azərbaycanda son sutkada koronavirus (COVID-19) əleyhinə 88 978 vaksin vurulub. Nazirlər Kabineti yanında Operativ Qərargahdan hafta.az-a verilən məlumata görə, bir gündə birinci mərhələ üzrə vaksinasiya olunanların sayı 40 804, ikinci mərhələ üzrə vaksinasiya olunanların sayı 48 174 nəfərdir.

# 2 İyul - Azərbaycan Polisi Günü

## Müsahib



**Mehman Mehmanov,**
istefada olan polis polkovniki

***“Həftə içi” 2 İyul -Azərbaycan Polisi Günü ərəfəsində Daxili İşlər Nazirliyinin (DİN) Şəxsi Heyətlə İş İdarəsinin rəisi, istefada olan polis polkovniki Mehman Mehmanovla artıq bir əsrdən çox uzanan tarixi bir yol keçmiş Azərbaycan polisinin keçmişi və bu günü haqqında maraqlı söhbət edib.***

***- Mehman müəllim, öncə Sizi qarşıdan gələn Polis Günü münasibətilə təbrik edirəm. Siz həm sovet dövründə, həm də müstəqilliyimizin bərpasından sonra - 30 ildən çox bir müddətdə daxili orqanlarda çalışmısız. Azərbaycan milisi və polisi haqqında yaddaşınızda hansı təəssüratlar, xatirələr qalıb?***

- 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən əsası qoyulmuş Azərbaycan daxili işlər orqanları bu günədək çox mürəkkəb, ziddiyyətli və keşməkeşli bir yol keçib. 2 ilə yaxın müddətdə yenicə formalaşmağa başlayan polisimiz 1920-ci ilin bolşevik işğalı nəticəsində 70 ildən çox zaman kəsiyində “milis” adlanan daxili işlər orqanları ideoloji-siyasi məngənədə sıxılsa da, daha çox Kremlin göstərişi ilə fəaliyyət göstərsə də, Azərbaycan xalqının asayişi, əmin-amanlığı üçün də xeyli işlər görüb. Odur ki, sovet dövründə də həm aşağı, həm yuxarı səviyyələrdə peşəkar, vicdanlı, xalqını, vətənini sevən milis kadrları da yetişib. O illərdə əsasən iqtisadi sahədə böyük və mütəşəkkil cinayətkar qrupların ifşası və zərərsizləşdirilməsi istiqamətində xeyli işlər görülüb.

...Mən 1981-ci ildə daxili işlər orqanlarında işə başlayanda Azərbaycan SSR daxili işlər naziri rəhmətlik Cəfər Vəliyev idi... O, öz işini bilən, savadlı, bacarıqlı, nüfuzlu və ciddi bir rəhbər idi. Təsəvvür edin ki, Cəfər müəllim SSRİ-nin ovaxtkı lideri Leonid Brejnevin kürəkəni olan SSRİ DİN-in birinci müavini Çurbanova Azərbaycanla bağlı bəzi göstərişlərinə çox cəsarətlə etiraz edir, sözünü deyirdi. Cəfər Vəliyevin çatışmayan cəhəti o idi ki, özü rusdilli olduğundan kadr və idarəetmə işlərində də rusdilli şəhərlilərə, qeyri-millətlərə üstünlük verirdi. Odur ki, rayonlardan gələn savadlı, peşəkar kadrlar sanki diskriminasiyaya məruz qalırdı...

Orqanlarda işlədiyim ilk illərdən sovet dövrü Azərbaycanının ən mükəmməl və vicdanlı daxili işlər naziri, ümumiyyətlə, unikal şəxsiyyətlərindən biri kimi 1970-1978-ci illərdə bu vəzifədə çalışmış Arif Heydərovun sorağını eşitmişəm. Rəhmətlik Azərbaycan türk xalqına məxsus dəyərləri özündə ehtiva edən böyük bir şəxsiyyət kimi tanınıb. Arif Heydərovun eyni zamanda böyük elmi dünyagörüşü də olub, bir neçə dil bilib. Onun mükəmməl idarəetmə prinsipləri, kollektivə, kadrlara etik normalar çərçivəsində yanaşması sayəsində nazir olduğu illərdə milis əməkdaşları özünü azad şəxsiyyət kimi hiss ediblər. Arif Heydərov bacarıqlı və nüfuzlu rəhbər işçi olmaqla yanaşı, dövlətinə, xalqına sədaqətli və həm də sadə bir insan olub...

Yadımdadır ki, 1980-ci illərin ortalarında DİN-in təsərrüfat idarəsində dülgər işləyən bir erməni usta sabiq daxili işlər naziri Arif Heydərov haqqında mənə maraqlı bir söhbət etmişdi... Ustanı göndəriblər nazirin bağında müəyyən təmir işləri görməyə. O da həmin vaxta qədər Arif Heydərovu yaxından görməyibmiş... Səhər tezdən saat 5-də görüb ki, bağda kimsə idman formasında gəzir, elə bilib ki, bağban-filandı. Onu yanına çağırıb ki, a kişi, gəl mənə kömək elə, bir azdan nazir gələcək, işi qurtarmalıyam. Rəhmətlik Arif müəllim də dinməz-söyləməz gəlib erməni ustanın yanına. O da başlayıb nazirə buyurmağa; “Nərdivanı saxla, çəkici ver, kəlbətini ver...”. Bir azdan digər bir neçə milis əməkdaşı Arif Heydərova yaxınlaşıb rəsmi milis salamı verəndə usta anlayır ki, bayaqdan uşaq kimi buyurduğu adam daxili işlər nazirinin özü imiş... Deyirdi ki, bunu başa düşən kimi, özümü nərdivandan aşağı atıb bağın darvazasına doğru qaçmağa başladım. Arif Heydərov isə ustanın ardınca yüyürərək çağırıb ki, “Ay kişi, geri dön, hələ məni sənin kimi işlədən olmamışdı...”. Nazir o ustanı geri qaytarıb səmimi söhbət edib və işini tamamladıqdan sonra çay-çörək də verdirərək mərifətlə yola salıb. Bu səbəbdən həmin erməni usta həmişə Arif Heydərovdan söz düşəndə göz yaşı içində deyirdi ki, ara, kaş, Azərbaycanın o nazirinə dəyən güllə mənim ürəyimə dəyəydi...

Cəfər Vəliyevdən sonra 1987-1990-cı illərdə nazir olmuş Aydın Məmmədovun dövründə də yenə də Moskvanın ideoloji-siyasi təzyiqlərinə, rusdillilərin meydan sulamasına rəğmən Azərbaycan üçün peşəkar milis kadrları yetişməyə başlamışdı.

Aydın müəllim savadlı, bacarıqlı işçiləri heç bir təmənnasız irəli çıxnməyə çalışırdı. Məsələn, o vaxt Gəncə Milis İdarəsinin rəisi olan rəhmətlik Zahid Dünyamalıyevi özünün də xəbəri olmadan gözlənilmədən nazirin 1-ci müavini təyin etdi. Zahid müəllim də Azərbaycan milisinə və gələcəkdə polisinə böyük nüfuz qazandıran şəxsiyyətlərdən oldu...



***- Müstəqilliyimizin bərpası ərəfəsində Azərbaycan daxili işlər orqanları hansı təşəkkül yolunu keçdi?***

- 1990-1991-ci illərdə SSRİ-nin çöküşü prosesi, milli azadlıq hərəkatının başlandığı dövrdə Azərbaycan daxili orqanları üçün daha mürəkkəb və məsuliyyətli bir dövr başlandı. Milislər cinayətkarlıqla yanaşı, Qarabağda və sərhədyanı bölgələrdə erməni terrorçu və işğalçı qruplaşmaları ilə qəhrəman mübarizəyə başladı. Daxili orqan əməkdaşları gecə-gündüz səngərlərdə əsgər kimi keçik çəkirdi. Milislərimiz, polislərimiz arasında yüzlərlə şəhid, yaralı və əlilimiz oldu. Mənim özüm də Ağdamın kəndlərində döyüş əməliyyatlarında iştirak etmişəm...

O dövrdə qısa müddətdə daxili işlər naziri rəhmətlik Məhəmməd Əsədovun xüsusi rolunu qeyd etmək vacibdir. 1992-1993-cü illərdə nazir olmuş mərhum İsgəndər Həmidovun da müəyyən nöqsanlarıyla yanaşı, orqanlarda korrupsiya və cinayətkarlığa qarşı mübarizədə, eləcə də erməni işğalçı və terrorçularına qarşı hərbi əməliyyatlarda Azərbaycan polisinin nüfuzunun yüksəlməsində xeyli rolu oldu...Ondan sonra cəmi bir neçə ay ərzində DİN-ə rəhbərlik etmiş Abdulla Allahverdiyev də öz peşəkarlıq, prinsipiallıq və obyektivliyi ilə yadda qalan nazirlərdəndir...

***- 1994-cü ilin mayında Qarabağda atəşkəs elan olunduqdan sonra Azərbaycan polisinin əsas funksiyası, yəqin ki, dövlətimizin nəzarətindəki ölkə ərazilərində daxili sabitliyin qorunmasına yönəldi?***

- Bəli, müstəqilliyimizin bərpasının ilk illərində əsas vəzifələrdən biri də ölkədə sabitliyin bərqəqar olunması idi ki, bunu da Azərbaycan polisi təşkil etməyə başladı. Sabitlik olmasa idi, heç bir xarici şirkət respublikaya sərmayə qoymayacaq və iqtisadi inkişaf başlamayacaqdı. Məhz 1993-1994-cü illərdə sabitlik yaradıldıqdan sonra 1994-cü ilin sentyabrında ölkə başçısı Heydər Əliyevin rəhbərliyi ilə “Əsrin müqaviləsi” imzalandı və Azərbaycana güclü kapital axını başlandı. Yadımdadır ki, 1993-cü ildə Prezident seçildikdən sonra, Heydər Əliyev o dövrdə Vaqif Novruzovun rəhbəri o olduğu DİN-in kollegiyasında çıxış edərək ölkənin taleyinin daha çox polislərdən asılı olduğunu vurğuladı... Heydər Əliyevin dövlət başçısı olduğu dövrdə daxili işlər naziri kimi Ramil Usubov da bu qurumun formalaşmasında böyük rol oynamış yaddaqalan polis rəhbərlərindən olub...

Bu minvalla o günlərdən bugünədək Azərbaycan polisi böyük, sürətli və həm də adına layiq şərəfli bir inkişaf yolu keçdi. Bu gün demək olar ki, son 18 ildə dövlət başçısı İlham Əliyevin də gördüyü ciddi tədbirlər sayəsində Azərbaycan Ordusu kimi, Azərbaycan polisi də regionda sayılıb-seçilən, öz vəzifələrini layiqincə yerinə yetirən, kifayət qədər ciddi, intizamlı, güclü və sanballı bir güc qurumudur. Hazırda respublikamızda kriminogen durum tam nəzarətdə saxlanılır...

Şükür Allaha ki, Ali Baş Komandanın siyasəti və şəhidlərimizin, qazilərimizin canı, qanı hesabına torpaqlarımız işğaldan azad olunub. İşğaldan azad bölgələrimizdə də polis əməkdaşları asayişi böyük qürur, əzm və iradə ilə asayişi təmin etməyə başlayıblar...

> “
> *Ayrı-ayrı əməkdaşların davranışına görə Azərbaycan polisinin, ümumiyyətlə, xalqa qarşı zorakılıq etməsi haqda fikir yürütmək doğru deyil*

***- 1990-cı illərin əvvəlindəki Azərbaycan polisi ilə bugünkü polis arasındakı fərqi necə xarakterizə edərdiniz?***

- Bilirsiniz, fərqli cəhətlər çoxdur. Bir məqamı xüsusi qeyd etmək istərdim. Polisin həm adi, həm də ekstremal vəziyyətlərdə əsas vəzifəsi asayişi qorumaq, ictimai təhlükəsizliyi təmin etməkdir. Bu günlərdə də Azərbaycan polisi zəruri hallarda dövlət rəhbərliyinin qanuni qərarlarına uyğun olaraq öz funksiyaları çərçivəsində digər işləri icra edir. Son illərdə baş vermis bəzi təbii və texnogen fəlakətlər zamanı, xüsusən də üzdəniraq koronavirus pandemiyasının yayıldığı, ölkə rəhbərliyinin bu bəlaya qarşı mümkün və lazımi tədbirlər gördüyü son bir ildən çox müddətdə məlum oldu ki, polis yaxşı mənada öz vəzifə funksiyalarından kənara çıxaraq çiyninə daha ağır yüklər götürür. O da fərəhli haldır ki, bu gün küçələrdə vəzifələrini yerinə yetirən polislərin əksəriyyəti boy-buxunlu, şıq və səliqəli geyimli, eyni zamanda gülərüz, vətəndaşlarla kifayət qədər etika çərçivəsində davranan əməkdaşlardır. Onu da qeyd edim ki, sovet dövründə milislər arasında geyimi-gecimi bərbad vəziyyətdə olan milis əməkdaşlarına çox rast gəlinirdi. Buna görə cəzalar da tətbiq olunurdu. İndi, şükür Allaha, polisimizdə belə bir problem yoxdur Son onilliklərdə, xüsusən də cənab daxili işlər naziri Vilayət Eyvazovun gördüyü ciddi tədbirlər sayəsində polis sistemində geyim, eləcə də nizam-intizam, subardinasiya qaydalarına riayət, əməkdaşların öz aralarında, xüsusən də vətəndaşlarla etik davranış məsələləri və s. yüksək səviyyədə həllini tapıb. Ancaq hesab edirəm ki, bundan sonra polis-xalq münasibətlərinin dərinləşməsinə daha ciddi yanaşmaq, bu sahədə müəyyən problemlərin aradan qaldırılmasına çalışamaq gərəkdir...

***- Yeri gəlmişkən, son illər, o cümlədən qeyd etdiyiniz pandemiya dövründə bir sıra hallarda bəzi polis əməkdaşlarının vətəndaşlara qarşı kobud davranışları cəmiyyətdə polis-vətəndaş münasibətlərinin gərginləşməsinə səbəb olur. Uzun illər polis kadrları ilə çalışmış bir peşəkar polis polkovniki kimi belə problemlərin qarşısını almaq üçün nələri təklif edərdiniz?***

- Bilirsiniz, onillərdən bəri Azərbaycanın müstəqil dövlətçiliyinin keşiyində duran aparıcı qüvvələrdən biri də məhz polisdir. Mən ölkədə, vətəndaş cəmiyyətində insanlara qarşı hər bir zorakılığın əleyhinəyəm. Polis zorakılığının da lap kəskin və qəti şəkildə əleyhinəyəm. Eləcə də polisə qarşı zorakılığı da pisləyirəm. Belə hallara yol verilməməlidir. Cəmiyyətdə vətəndaş-polis ünsiyyəti, münasibəti dinc, sakit, nəzakətli, təmkinli bir məcraya yönədilməlidir. Yəni polislə vətəndaşlar arasında qarşılıqlı anlaşma olmalıdır. Onu vurğulamaq istəyirəm ki, uzun illərdir ki, ümumən DİN-də kurs belədir: polis xalqa xidmət etməlidir. Bunu hörmətli nazir Vilayət Eyvazov dönə-dönə də tələb edir...

Xatırladım ki, DİN-də Şəxsi Heyətlə İş İdarəsinin rəisi vəzifəsində çalışarkən Azərbaycan polisinin etik davranış qaydaları barədə əsasnamənin bilavasitə mənim rəhbərliyim altında hazırlanıb. “Təfəkkür” Universitetinin etika kafedrasının ovaxtkı müdiri, rəhmətlik professor Tariyel müəllimlə birgə neçə-neçə kitab üzərində işlədikdən sonra, bu əsasnaməni ortalığa qoymuşuq. Bilirsiniz ki, “etika” fransızca nəzakət deməkdir. Həmin əsasnamədə polisin vətəndaşa necə müraciət etməsi, onun sənədlərini yoxlayan zaman necə davranması, sənədi hansı əlində tutub hansı əli ilə onu vərəqləməsi və s. kimi bütün hallar incə detallarınadək qeyd olunur. Bu əsasnamə kitabça şəklində bütün polis əməkdaşlarına paylanır. Yəni polislərimiz hamısı bu etika qaydalarıyla tanışdır və onlara maksimum əməl etməyə çalışır...”.

Sözümün canı ondadır ki, ayrı-ayrı əməkdaşların davranışına görə Azərbaycan polisinin, ümumiyyətlə, xalqa qarşı zorakılıq etməsi haqda fikir yürütmək doğru deyil. Bəli, etiraf etmək lazımdır ki, polislər arasında da peşəsinə etinasız yanaşanlar, kobud xarakterli, davranışlarına nəzarət edə bilməyənlər ola bilər. Hələ mən nazirlikdə işləyən dövrdə özüm şəxsən neçə belə əməkdaş barədə çox ciddi tərbirlər gördürmüş, neçəsini daxili işlər orqanlarından xaric etdirmişəm. Ümumi strategiya, dəst-xətt polisin Azərbaycanın ümidgahına çevrilməsi kursudur. Bu gün Azərbaycan dövlətinin ən əsas dayaqlarından biri polisdir. Polisi sarsıtmaq olmaz. Sadəcə, səhvə-xətaya meyilli əməkdaşları səhvdən, xətadan çəkindirmək gərəkdir. Xəta,cinayət edən polis barəsində ən qatı ölçü götürülməlidir. Sadə vətəndaşı, xalqı incidən polis əməkdaşı haqda ən ciddi, ən sərt cəza tədbiri görülməlidir. Və əmin olun ki, bu gün belə tədbirlər görülür...

Sonda cənab nazir, eləcə də indiki və keçmiş rəhbər həmkarlarım da başda olmaqla, Azərbaycan polisinin bütün heyətini Polis Günü münasibətilə təbrik edir, hər bir polis əməkdaşına şəxsi və ictimai həyatında, ən başlıcası xidməti vəzifələrini icrasında uğurlar diləyirəm...

✍ ***Sultan Laçın***

# “Karabakh.Center”in müxtəlif dillərdə təqdimatı nəzərdə tutulur




**“İşğal zamanı dağıntılar, sadəcə, tarixi obyektlərimizə, mülkümüzə qarşı törədilməyib. Bu gözəl guşənin təbiətinə də çox böyük zərər vurulub”. Bunu “Karabakh.Center” internet resursunun təqdimat mərasimində iqtisadiyyat naziri, Qarabağ Dirçəliş Fondunun Müşahidə Şurasının sədri Mikayıl Cabbarov deyib.**

Nazir bildirib ki, internet resursunda bu barədə də məlumatlar dərc olunub: “Bu dağıntılar bizim hansı düşmənlə üz-üzə olduğumuzu göstərir”. “Bu, yeni, böyük bir yolun başlanğıcıdır”. Mikayıl Cabbarov deyib. Nazir bildirib ki, qəhrəman Azərbaycan Ordusunun şücaəti nəticəsində bu gün işğaldan azad edilmiş Qarabağın dirçəlişi məsələsi müzakirə olunur: “Müharibə bizi testdən keçirdi. Bunlardan biri cəmiyyətin birləşməsi testi idi ki, biz bu sınaqlardan üzüağ çıxdıq. Torpaqlarımızın işğaldan azad edilməsi ilə nəticələnən prosesin iştirakçısı olduq. Qarabağ Dirçəliş Fondunun fəaliyyətinə müddətli kimi deyil, əbədi baxmalıyıq. Çünki burada yalnız dağıdılmış maddi irsimizin bərpası kimi hədəflərlə məhdudlaşa bilmərik. Biz bu prosesdən irəli gələrək daimi, dayanıqlı inkişafı hədəfləməliyik. Artıq yeni çərçivədə təqdim olunan ağıllı şəhər, ağıllı kənd anlayışlarının yaradılmasının şahidiyik. Bərpa prosesi tarixi əhəmiyyət daşıyan abidələrimizin sadəcə qorunub saxlanmasından ibarət deyil, onun inkişaf etdirilməsi prosesi də aparılmalıdır.

Tarixdə Stalinqrad, Sarayevo, Xirosima da olub. Qarabağdakı isə şüurlu şəkildə, on illiklər ərzində həyata keçirilən dağıntı prosesidir. Bunun bir daha bəşəriyyətin tarixində təkrarlanmamasına diqqət ayrılmalıdır. “Karabakh.Center” internet resursunun təqdimatı I Vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü əsasında gerçəkləşir”.

“Karabakh.Center” internet resursunun müxtəlif dillərdə təqdimatı nəzərdə tutulur. Mikayıl Cabbarov deyib. Nazir bildirib ki, bu, təkcə onlayn şəkildə məhdudlaşmamalıdır: “Qarabağda baş verən dağıntıların miqyası dünyaya çatdırılmalıdır. Dağıdılmış abidələr bərpa olunacaq.

Prezident İlham Əliyevin tapşırığı ilə bu iş həyata keçirilir. Qarabağ Dirçəliş Fondu bu cür layihələrə dəstək verməkdən qürur duyur”.

# Qeydiyyat nişansız ikitəkərlilər

◂ əvvəli 1-ci səhifədə

Həmin vətəndaşlar unutmamalıdırlar ki, qanun qarşısında onlar da eyni dərəcədə məsuliyyət daşıyırlar. Bu nəqliyyat vasitəsini idarə edən şəxs qaydaları pozsa, 40 manat cərimə edilir. Bu da avtomobil idarə edənlərlə təxminən eyni cərimədir. Lakin bu nəqliyyat vasitəsini idarə edənlərdə belə təəssürat yaranır ki, onlar nə istəsələr, edə bilərlər. Həmin sürücülərə müəyyən təlimatlar vermək lazımdır. Bakı Nəqliyyat Agentliyi, yaxud Dövlət Yol Polisi onlara müəyyən təlimatlar verməlidir. Bundan sonra həmin nəqliyyat vasitələrini idarə etmək üçün yola buraxmaq olar. Bəzi dünya ölkələrində, məsələn, Rusiyada bütün nəqliyyat vasitələrini qeydiyyata alırlar. Bizdə də belə olsa, daha yaxşı olar. Rusiyada onları da yol hərəkəti qaydaları barədə sual-cavab edirlər və vəsiqələr verirlər”.

Yeri gəlmişkən, son 2 il ərzində Bakı və Abşeron ərazisində motosiklet və mopedlərdən istifadə edən kuryerlərin sayı artıb. Onlardan bəziləri sifarişləri ünvana tez çatdırmaqdan ötrü təhlükəsizlik qaydalarına önəm vermirlər. Nəticədə, qəza şəraiti yaradırlar və yol qəzaları baş verir. Bəzi restoranlar isə çatdırılma xidməti ilə bağlı konkret vaxt təyin etdiklərindən kuryerlər sürət həddini aşmaq, təhlükəsizlik qaydalarına önəm verməmək məcburiyyətində qalırlar. Bu məsələ ilə bağlı əlaqə saxladığımız restoranlardan isə bildirdilər ki, işə qəbul zamanı kuryer xidməti üzrə təcrübəsi olanlara üstünlük verilir. Bəzən iş təcrübəsi olmayan gənclər müraciət edəndə isə onlar müəyyən təlimlərə cəlb olunduqdan sonra fəaliyyətə başlayırlar. Təlim prosesində işci və işəgötürənin hüquq və vəzifələri, nəqliyyat vasitələrindən istifadə, müştəri ilə davranış qaydaları və s. barədə məlumat verilir. İşə qəbul olunan kuryerin məsuliyyətsizliyi ucbatından hansısa xoşagəlməz hal baş verdikdə isə onunla bağlanan müqaviləyə xitam verilir.

Məlumat üçün onu da qeyd edək ki, bu gün paytaxtda ən çox tələb olunan işçilər kuryer və taksi sürücüləridir. Müşahidələr göstərir ki, bu sahədə rəqabətin ilbəil artması fonunda əmək haqqı da yüksəlib. Məsələn, bir il əvvəl kuryerin orta maaşı 300-600 manat idisə, artan rəqabət fonunda bu peşə üçün hazırda maaş 500-1000 manata qədər böyüyüb. Şirkətlər isə kuryerlik fəaliyyəti ilə məşğul olmaq istəyənlərə iki formada iş təklif edirlər. Ya qrafik sərbəst olur, ya da bütöv iş saatı təyin edilir.

Kuryerlik fəaliyyəti ilə həm şirkətin təqdim etdiyi, həm də şəxsi nəqliyyat vasitəsilə məşğul olmaq mümkündür. Hazırda bazarda moped və motosikletlərin qiyməti marka və mühərrik həcmindən asılı olaraq 800-2500 manat arasında dəyişir.

Bəzi elan saytlarında, hətta arenda yolu ilə nəqliyyat vasitələri də təklif olunur. Məsələn, sıfır kilometr mopedin gündəlik arendası 12 manatdan başlayır.

✍ ***Sevinc***

# "RESM" - dünyaya çıxan qızıl brendimiz

Sahibkar

***Bu gün Azərbaycanın qızıl bazarında alıcılara xarici brendlərlə yanaşı, yerli brendlərin məhsulları da təklif olunur. Belə ki, təxminən, 10 il bundan əvvəl yerli bazarlarda Azərbaycan brendi olan qızıl məmulatlarına nadir hallarda rast gəlinirdisə, hazırda bazarda kifayət qədər yerli brendlərin məhsulları mövcuddur. Azərbaycan brendi olan zərgərlik məmulatlarına dünya bazarlarında da tələbat yaranıb. Rusiya və Türkiyədən olan müştərilər Azərbaycan brendi olan qızıl məmulatlarına böyük maraq göstərirlər.***





**Rəsminə Qurbanova,**
Azərbaycan zərgərlik brendinin təsisçisi və dizayneri

## Dosye

**Qürbətova Rəsminə Eldar qızı 1981-ci ildə Bakı şəhərində anadan olub. Milli naxış və ornamentlərdən ilhamlanan ilk Azərbaycan zərgərlik brendinin təsisçisi və dizayneridir. O, Bakı Dövlət Universitetinin Beynəlxalq Əlaqələr və Beynəlxalq Hüquq fakültəsini bakalavr və magistr dərəcəli fərqlənmə diplomları ilə bitirib. Qədim şərq naxışlarından ilhamlanan "Resm" zərgərlik brendini 2012-ci ildə yaratmış və təqdim etmişdir. "Resm"in bütün məmulatları, dizaynın tarixi konteksti, ornament və ənənəvi naxışların mənşəyi barədə məlumat verən, fərdi təsvirlərlə təchiz olunur. "Resm"in məmulatları 14/18 əyar qızıldan və qiymətli daşlardan istifadə etməklə hazırlanır. 2018-ci ildə Qürbətova Rəsminə Amerika Gemoloji Akademiyasının Akkreditasiyadan keçirilmiş zərgər sertifikatını alıb. 2020-ci ilin fevral ayından etibarən Qürbətova Rəsminə Eldar qızı "Azərbaycan zərgərlər assosiasiyası" İctimai Birliyinin İdarə Heyəti Sədrinin müavinidir.**

Milli naxış və ornamentlərdən ilhamlanan ilk Azərbaycan zərgərlik brendinin təsisçisi və dizayneri Rəsminə Qurbanova hafta.az-a açıqlamasında bildirib ki, onlar müştərilərə təklif olunan bütün məhsulların hazırlanmasına xüsusi diqqət göstərirlər:

"Resm" zinyət əşyaları qədim Azərbaycanın naxış və bəzəklərinin müasir interpretasiyasını təqdim edir. Sadəcə dəbli aksessuar deyil, "Resm" məmulatları Azərbaycanın mədəniyyəti, ənənələri və hər şeydən qabaq, ruhu ilə bir əlaqə yaradır. Aid olduğu dövrdən asılı olmayan bir xarakterə və ən yüksək keyfiyyətə malik olmaqla yanaşı, "Resm" zinət əşyaları adi dəb meyillərindən üstün olmağa, əcdadların yaşadığı bir aləmə qatılmağa imkan verir.

"Resm"in istehsal və təqdim etdiyi bütün qızılların ən əsas özəlliyi hər bir məhsulun fərdi olaraq hazırlanması - yəni əlişi olmasıdır. Eyni zamanda bu məhsulların üzərində qiymətli və yarıqiymətli daşlardan istifadə olunur, ən əsası isə Azərbaycanın milli ornamentlərini bu məhsulların üzərində əks etdirməklə onları hər bir alıcı öz üzərində daşıya bilər".

Qeyd edək ki, hazırda "Resm" brendi alıcılara 17 kolleksiya üzrə məhsullar təklif edir. Bu, "Xalça", "Keçmişin izləri", "Tarixin çarxları", "Nar", "Mahı", "Əjdahalı", "Buta", "Xülyəvi Quşlar", "Hərflər", "Qobustan", "Laley-Abbasi", "İlhami", "Xarıbülbül", "Şərflər", "Sikkələr","Evimizə qayıtdıq!" və "Naxışlı personajlar" kolleksiyalarıdır. Məhsulların qiyməti 50-10 min manat arasında dəyişir.

Bu brendin bir özəlliyi də satışa minalı zərgərlik məmulatları təqdim etməsidir. Hazırda "Resm"in hansı kolleksiyalarına daha çox maraq olduğuna gəlincə, R.Qurbanova bildirir ki, insanların zövqü müxtəlif olduğu üçün demək olar ki, bütün kolleksiyalara tələbat genişdir: "Lakin ən əsas yeri, "Xalça" kolleksiyası və son dövrlərdə Qarabağın azad olunması ilə bağlı olaraq isə Xarıbülbül kolleksiyamız insanların daha çox diqqətinə səbəb olmuşdur. Buna görə də hazırda bu iki kolleksiyaya tələbat daha çox geniş vüsət almışdır. "Resm" brendində hər yaş həddinə uyğun məhsul istehsal edilmişdir. Son olaraq isə uşaqlar üçün nəzərdə tutulan "Naxışlı personajlar" adlı kolleksiyamız 1 iyun "Uşaqların müdafiəsi" gününə həsr olunmuşdur. Burada uşaqların hər zaman diqqətini çəkən maraqlı və əyləncəli heyvan personajlarını əks etdirən zinət əşyaları hazırlanmışdır. Ümumiyyətlə isə "Resm" brendi olaraq demək olar ki, mütəmadi olaraq yeni kolleksiyalarımız yaranır və bir birindən gözəl məhsullarımız istehsal olunur.

> *"Azərbaycan istehsalı olan məhsullara daha çox hansı ölkələrdən maraq göstərilir?*

Bu baxımdan da say hər zaman artmaqdadır. Hazırda isə satışda olan məhsullarımızın sayı 1000 üzərini artıq uzun müddətdir ki keçmişdir. Məhsulların qiymətinə gəlincə, bizdə məhsulların qiyməti ən əsas əl işinə görə dəyərləndirilir, çünki qeyd etdiyimiz kimi hər bir məhsula özəl yanaşılır, fərdi hazırlanır və üzərində qiymətli daşlardan istifadə olunur. Bu baxımdan da müxtəlif məbləğ aralığında olan məhsullarımız mövcuddur.

"Resm"də həm 585, həm də 750 əyarlı qızıldan hazırlanmış dəyərli zinət əşyaları təklif olunur". Dizayner həmçinin qeyd edib ki, hazırda Azərbaycanın qızıl brendinə yerli müştərilərlə yanaşı, xarici alıcılar da böyük maraq göstərirlər: "Demək olar ki, bizim yerli brendə daha çox Amerika, Rusiya və Türkiyədən kifayət qədər maraq göstərilir və sifarişlər həyata keçirilir".

"Resm"in təklif etdiyi fərqli, yəni minalı zərgərlik məhsullarından danışan həmsöhbətimiz qeyd edir ki, bu məmulatlar yerli ustalar tərəfindən incəliklə hazırlanır: "Təbii ki zövqlər müxtəlifdir, bu baxımdan həm minalı, həm də sadə qızıldan məhsullar hazırlanır və satışa çıxarılır. Lakin minalı əşyalara xeyli maraq vardır, çünki minadan istifadə olunması eyni zamanda zinət əşyalarına ayrıca özəllik və incəlik atır.

Eyni zamanda, "Resm"də öncədən də qeyd etdiyim kimi, həm qiymətli, həm də yarıqiymətli daşlardan istifadə olunur. Məsələn, qara və ağ brilyant, sapfir, zümrüd və s. kimi daşlardan istifadə olunur ki bu da ilk növbədə öz təbiiliyi ilə seçilir".

Yeri gəlmişkən, "Resm" istehsalında istifadə edilən mina davamlı olsa da, müəyyən sadə qulluq tələb edir. Bu məmulatların yaradıcıları minanın çatlamasının qarşısını almaq üçün zərgərlik əşyalarınızı, saxladığınız yerdən götürüb qoyarkən ehtiyatla davranmağınızı tövsiyə edirlər.

"Resm" əşyalarının dizayner qutusunda və ya xüsusi konteynerlərdə saxlanması, onların ümumi qutularda digər əşyalarla toqquşmasının qarşısını alacaq. Əşyaların ayrı saxlanması, həmçinin onları zədələnmələrdən də qoruyacaq. Əşyaları təmizləmək üçün mütləq verilmiş parçalardan istifadə edilməlidir.

Sizi lazımi alətlərlə təmin etmək məqsədilə hər bir "Resm" zərgərlik əşyasına xırda lifli parça əlavə edilir. Bu xırda lifli kimyasız parçalardan birini hər zaman yanınızda saxlayın və yalnız zərgərlik əşyaları üçün istifadə edin. Bu parçalar əşyaların üzərində qalan barmaq izlərini və digər kiçik ləkələri asanlıqla təmizləyəcəkdir. Parçanın paltaryuyan və ya qurudan maşınlarda yuyulması və ya onun sərtliyini azaltmaq üçün istənilən növ kimyavi yumşaldıcı maddələrdən istifadə edilməsi qəti sürətdə məsləhət görülmür. Ehtiyatla yaxalayın. İliq suya bir neçə damcı mülayim qabyuyan maddədən əlavə edib zərgərlik əşyalarınızı köpüklü suda yaxalamanız tövsiyə edilir. Əşyanı yaxalamaq üçün plastik konteynerdən və qurutmaq üçün yumşaq parçadan istifadə edin.

*Sevinc*

# Ədliyyə Nazirliyində iclas keçirilib





***İyunun 30-da ədliyyə naziri Fikrət Məmmədovun sədrliyi ilə nazirliyin kollegiya iclası keçirilib. İclasda Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikamızın davamlı tərəqqisi, işğaldan azad edilmiş torpaqlarımızın bərpası, bu istiqamətdə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə mühüm layihələrin həyata keçirilməsi qeyd olunub.***

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Şuşaya səfəri və Milli Qurtuluş Günündə Azərbaycan və Türkiyə arasında müttəfiqlik münasibətlərinə dair imzalanmış Şuşa Bəyannaməsinin müstəsna siyasi və tarixi əhəmiyyəti qeyd olunaraq bu mühüm sənədin ölkələrimizin ümumi maraqlarının və təhlükəsizliyinin qorunmasına xidmət etdiyi vurğulanıb.

Dövlət başçısının rəhbərliyi ilə ölkəmizin hərtərəfli inkişafına uyğun olaraq ədliyyə və məhkəmə sistemində islahatların davam etdirildiyi, yüksək texnoloji məhkəmələrin yaradıldığı, o cümlədən ötən ay Bakı şəhəri Suraxanı Rayon Məhkəməsinin müasir binasının və Masallı Məhkəmə Kompleksinin istifadəyə verildiyi bildirilib. Qeyd edilib ki, məhkəmə binalarında şəffaf və innovativ fəaliyyətin təşkili, xüsusilə vətəndaşların rahatlığı üçün yaradılmış müasir şərait media-tur təşkil edilərək ictimaiyyətə təqdim olunub. İclasda ədliyyə fəaliyyətinin əsas istiqamətləri üzrə cari ilin birinci yarımilində görülmüş işlər müzakirə olunaraq məlumat verilib ki, ölkədə iqtisadi inkişafa, əhalinin rifahının yaxşılaşdırılmasına yönələn qanunvericiliyin təkmilləşdirilməsi işində iştirak edən nazirlik tərəfindən 1.500-dən artıq hüquqi akt layihəsi hazırlanıb, 1.400-dən çox akt ekspertizadan keçirilib.

**Əhalinin hüquqi biliklərinin artırılması məqsədilə milli qanunvericiliyin yeni vahid elektron bazası (e-qanun.az) istifadəyə verilib, funksionallığı, interaktivliyi və əlçatanlığı ilə fərqlənən bu elektron resursa cari ildə daxilolmaların sayı 1,1 milyonu ötüb.** Həmçinin vətəndaşların ədliyyə fəaliyyəti ilə bağlı maarifləndirilməsi məqsədilə nazirliyin sosial şəbəkə səhifələrinin imkanlarından istifadə edilməklə mətbuat konfransı və onlayn brifinqlər keçirilib.

Dövlət başçısının vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması ilə bağlı tapşırıqları diqqətdə saxlanılaraq 1.900 vətəndaş bilavasitə və videoformatda qəbul edilib, müraciətlərlə bağlı zəruri tədbirlər görülüb.

Ölkə iqtisadiyyatının inkişafı və mülki dövriyyənin artması nəticəsində notariat hərəkətlərinin sayı əvvəlki dövrlə müqayisədə 14 faiz çoxalaraq 2 milyonu ötüb. Həmçinin birinci yarımildə 128 minə yaxın vətəndaşlıq vəziyyəti aktları, 53.400-dən çox doğum, habelə ötən ilin eyni dövrü ilə müqayisədə 20 faizdən çox - 22 minə yaxın nikah dövlət qeydiyyatına alınıb. Eyni zamanda, ədalət mühakiməsinin səmərəliliyinin artırılmasında mühüm rol oynayan məhkəmə qərarlarının icrası işinin yaxşılaşdırılması üzrə ardıcıl tədbirlərin davam etdirildiyi qeyd olunaraq altı ayda 345 mindən çox icra sənədinin icrasının təmin edildiyi və 300 milyonadək vəsaitin ödətdirildiyi bildirilib.

Cari ildə həmçinin, azadlığın məhdudlaşdırılması və digər alternativ cəzalara məhkum olunmuş şəxslərə 2.800-dən çox elektron qolbaq tətbiq edilib, həmin cəzaların icrasının daha səmərəli təşkili və nəzarətin gücləndirilməsi məqsədilə Bakı şəhər probasiya idarəsi yaradılaraq fəaliyyətə başlayıb.

Bundan əlavə, birinci yarımildə Məhkəmə Ekspertizası Mərkəzində 41 ekspert ixtisası üzrə 13 mindən artıq işə baxıldığı, 348 minə yaxın tədqiqat obyekti üzrə müvafiq rəylərin verildiyi bildirilib. Nazirlik tərəfindən bələdiyyə fəaliyyətini tənzimləyən qanunvericiliyin təkmilləşdirilməsinə dair tədbirlərin görüldüyü, 2021-ci ildə 38 minədək bələdiyyə aktı üzrə inzibati nəzarət həyata keçirildiyi, 1.225 aktın nazirliyin təklifləri əsasında ləğv edildiyi və ya dəyişdirildiyi, habelə qanunsuz verilmiş 2.400 hektardan çox torpaq sahəsinin geri qaytarıldığı qeyd olunub.

**Eyni zamanda, nazirliyin beynəlxalq hüquqi əməkdaşlığına toxunularaq cari ildə bir sıra mötəbər beynəlxalq forumlarda iştirak edildiyi, bu zaman Ermənistanın qanunsuz əməlləri, xüsusilə azad edilmiş torpaqlarımızda işğal dövründə quraşdırdıqları mina xəritələrini verməsi ilə bağlı çağırışların edildiyi, həmçinin xarici ölkələrin ədliyyə nazirlərinə və nüfuzlu beynəlxalq təşkilatlara müraciətlər ünvanlandığı diqqətə çatdırılıb.**

Kollegiyada "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" ölkə Prezidentinin 2019-cu il 3 aprel tarixli Fərmanının icrası çərçivəsində "Elektron məhkəmə" informasiya sisteminin tətbiqi üzrə görülən işlər qeyd olunaraq ədalət mühakiməsinə əlçatanlığı genişləndirən, şəffaflığı və operativliyi təmin edən e-məhkəmənin keyfiyyətli və dayanıqlı fəaliyyətinin təmin edilməsi ilə bağlı əlavə tədbirlər müəyyən edilib, bu sahədə vəzifələrə dair Təlimat təsdiq olunub. İclasda qarşıda duran vəzifələr müzakirə edilərək ədliyyə fəaliyyətinin dövlət başçısının yüksək tələbləri səviyyəsində qurulması, yol verilən xarakterik nöqsanların səbəb və şəraitinin aradan qaldırılması, vətəndaşlara layiqli xidmətlər göstərməklə məmnunluğun təmin edilməsi, şəffaflığın artırılması ilə bağlı tapşırıqlar verilib, etik davranış qaydalarına dönmədən əməl olunması və korrupsiyanın yolverilməzliyi diqqətə çatdırılıb.

Eyni zamanda ölkə başçısı tərəfindən yaradılmış Əlaqələndirmə Qərargahı çərçivəsində azad edilmiş ərazilərdə sosial-iqtisadi, humanitar, təşkilati və digər məsələlərin həlli ilə bağlı nazirliyin qarşısında duran vəzifələrin mütəşəkkil icrasının diqqətdə saxlanılması vurğulanıb.

Ədliyyə fəaliyyətinin istiqamətləri üzrə əsas prioritetlərə dair, o cümlədən ədliyyənin inkişafına dair 2019-2023-cü illər üzrə Dövlət Proqramının icrası, ictimai iştirakçılığın səmərəliliyinin artırılması, ədliyyə xidmətləri ilə innovasiyaların tətbiqi ilə bağlı və digər konkret tədbirlər müəyyən edilib. Sonda ədliyyə fəaliyyətini tənzimləyən bəzi normativ sənəd layihələri təsdiq edilib, bir sıra qeyri-kommersiya hüquqi şəxslər dövlət qeydiyyatına alınıb.

*Azad*



■ **Təksə 2020-ci ildə, pandemiya şəraitinə baxmayaraq, Aqrar Kredit və İnkişaf Agentliyi (AKİA) tərəfindən 448 qadın sahibkara 4,4 mln. manat məbləğində kredit ayrılıb, 2,3 mln. manat dəyərində isə güzəştlər verilib.**

Bunu AKİA-nın sədr müavini Leyla Məmmədova USAID tərəfindən dəstəklənən Qadınların Milli Biznes Gündəliyi platformasının yaradılmasına həsr olunmuş tədbirə çıxış edərkən deyib. Onun sözlərinə görə, bu ilin ilk yarısında isə 143 sahibkar qadın AKİA tərəfindən ayrılan 1,7 mln. manat məbləğində kreditlərdən və 1,7 mln. manatlıq güzəştlərdən istifadə edib.



■ **Bu ilin yanvar-aprel ayında Türkiyə Azərbaycandan 3 929,17 mln. kubmetr qaz idxal edib ki, bu da ötən ilin müvafiq göstəricisi ilə müqayisədə 7,8% çoxdur.**

Yanvar-aprel ayında Azərbaycan Türkiyənin ümumi qaz idxalında Rusiyadan sonra ikinci yerdə qərarlaşıb. Məlumata görə, Türkiyə 2020-ci ilin yanvar-aprel aylarında Azərbaycandan 3 645,81 mln. kubmetr qaz idxal edib. Cari ilin aprel ayında Türkiyə Azərbaycandan 771,2 mln. kubmetr qaz idxal edib, bu da illik müqayisədə 15,86% azdır. Aprel ayında Azərbaycan Türkiyənin ümumi qaz idxalında Rusiya və İrandan sonra üçüncü yerdə qərarlaşıb. Qeyd edək ki, ötən il Türkiyə Azərbaycandan 11 547,38 mln. kubmetr qaz idxal edib, bu, 2019-cu illə müqayisədə 20,5% çoxdur.



■ **"Bakı metropoliteni" QSC-nin sifarişi ilə Bakıya Rusiyanın "Metrovaqonmaş" müəssisəsinin istehsalı olan dördüncü nəsil 81-765 və B81-/766.B modelli 20 vaqon yola salınıb. Bunu QSC-nin mətbuat xidmətinin rəhbəri Bəxtiyar Məmmədov deyib.**

Onun sözlərinə görə, vaqonların ilk partiyası iyunun 29-da, ikinci partiyası iyunun 30-da göndərilib: "Hər partiyada iki lokomotiv yer alır. Təkmilləşdirilmiş istilik və səs izolyasiyalı vaqonlarda sərnişinlər üçün çoxfunksiyalı zonalar, irihəcmli yüklər, uşaq və əlillər üçün yerlər var. Vaqonlar virusa yoluxmanın qarşısını alan funksiyasının olduğu kondisioner sistemləri ilə təchiz olunub".



■ **Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası elektrik enerjisi üzrə qərarına dair izahedici şərh verib.**

Azərbaycan Respublikası Tarif (qiymət) Şurası 30.06.2021-ci il tarixli 9 nömrəli qərarı ilə elektrik enerjisi üçün müəyyənləşdirilən topdansatış tarifinə aydınlıq gətirərək bildirir ki, bu tariflər enerji təchizatı birbaşa 35 və 110 kV-luq xətlərlə həyata keçirilən, gün ərzində yük tələbatı stabil olan, istehsal məqsədləri üçün orta aylıq enerji istehlakı 5 milyon kVts-dan az olmayan məlumatların emalı, qeydə alınması və ötürülməsi üzrə fəaliyyət göstərən məlumat mərkəzlərinə şamil olunur. Bu tarifin əhaliyə və qərarda qeyd edilən fəaliyyətdən fərqli fəaliyyətlə məşğul olan qeyri-əhali abonentlərinə aidiyyəti yoxdur.



■ **Nazirlər Kabinetinin "2021-ci il üçün Novruz, Ramazan və Qurban bayramları günlərinin müəyyən edilməsi haqqında" 3 dekabr 2020-ci il tarixli qərarına əsasən, Qurban bayramı bu il iyulun 20-si və 21-də qeyd olunacaq.**

Nazirlər Kabinetinin "Xüsusi karantin rejimi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 12 sentyabr tarixli 336 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında" qərarına əsasən, 20 və 21 iyul ictimai nəqliyyat, həmçinin Bakı Metropolitenində sərnişindaşıma fəaliyyətinin dayandırıldığı günlər sırasına daxil deyil. Odur ki, Qurban bayramı günlərində ictimai nəqliyyatda, həmçinin Bakı Metropolitenində sərnişindaşıma fəaliyyəti dayandırılmayacaq.



■ **Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 86 yeni yoluxma faktı qeydə alınıb, 26 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan hafta.az-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 1 nəfər vəfat edib. İndiyədək ölkədə ümumilikdə 336047 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 330219 nəfər müalicə olunaraq sağalıb, 4974 nəfər vəfat edib, aktiv xəstə sayı 854 nəfərdir. Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 8871, ötən müddət ərzində isə ümumilikdə 3749303 test aparılıb.

# "Hindistan ştammı" - ölkəmiz üçün təhlükə varmı?

## Pandemiya

***Əhalinin bir qisminin vaksinasiya edilməsi və başqa amillərlə əlaqədar hazırda ölkədə koronavirusla bağlı yeni yoluxmaların sayı kəskin şəkildə azalıb. Buna baxmayaraq, indi dünyamız növbəti təhlükənin astanasındadır. Belə ki, COVID-19-un mutasiyaya uğraması nəticəsində yaranmış yeni tipi olan "Delta plus", artıq onlarca ölkədə yüzlərlə adamın həyatına son qoyub. Ümumdünya Səhiyyə Təşkilatının son açıqlamasına görə, Hindistan ştammı artıq 92 ölkədə yayılıb.***



Bundan başqa, Moskvada COVID-19-a yeni yoluxanların 90 faizində "Hindistan ştammı" aşkarlanıb. Bəs görəsən hazırda ölkəmizi hansı təhlükələr gözləyir? Bu yeni qapanma deməkdir?

**■ Hafta.az mövzu ilə bağlı mütəxəssisə müraciət etdi. Həkim-infeksionist Vüqar Cavadzadə söylədi ki, Hindistan ştammı**



**Vüqar Cavadzadə,**
həkim-infeksionist

**olduqca təhlükəli tipdir. Əsas xarakteristikası sürətli yayılması, uşaqların yoluxması və ölüm hallarının çox olmasıdır. Üstəlik, yeni tip virusun qonşu ölkələrdə də yayılması əhalimiz üçün təhlükəni bir qədər də artırır:**

"Rusiyada son həftədəki vəziyyətə baxsaq görərik ki, günə təxmini 2000-2500 adam ölür. Virus çox sürətlə yayılır və ölkə artıq bununla bağlı müəyyən tədbirlər görməyə başlayıb. Elə qardaş ölkə Türkiyədə də müxtəlif məhdudiyyətlərin qoyulacağı istisna deyil". "Dünya üzrə Hindistan ştammının sürətlə yayıldığı bir vaxtda Azərbaycan üçün də yeni qapanmalar və məhdudiyyətlər ola bilərmi?" sualına isə mütəxəssisin cavabı belə oldu: "Burada təkcə yeni ştammı nəzərə almaq yanlış düşüncədir. Fikrimcə, COVID-19-la bağlı ümumi vəziyyətə nəzər salmaq lazımdır. Əgər yoluxmalar artarsa, bunun qarşısını almaq üçün müxtəlif tədbirlər həyata keçirmək olar. Qonşu ölkələrdə görülən tədbirləri nəzərə alsaq, qapanmaların olmasını gözləmək olar".

*"Əgər yoluxmalar artarsa, bunun qarşısını almaq üçün müxtəlif tədbirlər həyata keçirmək olar*

*Vaksinlər və insanda xəstəlik zamanı yaranan adaptiv immunitet "Delta" və "Delta+" ştammından tam qorunmağa imkan vermir*

Qeyd edək ki, mütəxəssislər hazırda COVID-19 ilə mübarizədə əhaliyə tətbiq edilən peyvəndləri yeni yaranmış mutasiyalar üçün də effektiv hesab edirlər.

Onu da nəzərinizə çatdıraq ki, bu günə qədər ölkəmizdə koronavirusun Delta variantına rast gəlinməyib. Bu ilin mart ayında isə Azərbaycanda "Sars Cov-2" genom analizi edilən üç nümunədə 501Y.V1, B.1.1.7 (Britaniya variantı) aşkar edilmişdi.

**■ Vaksinlər və insanda xəstəlik zamanı yaranan adaptiv immunitet "Delta" və "Delta+" ştammından tam qorunmağa imkan vermir. Bunu isə tibb elmləri doktoru Adil Qeybulla deyib.**

Onun sözlərinə görə, "Delta" ştammının əsas xüsusiyyəti ondan ibarətdir ki, bu vi-



**Adil Qeybulla,**
tibb elmləri doktoru

rusla yoluxma zamanı tikanlı zülalda, yeni səthdə olan S zülalda xeyli dəyişiklik baş verib. Bu da virusun çox asanlıqla hüceyrə daxilinə keçməsinə şərait yaradır: "Təbii ki, alimlər hesab edir ki, immuniteti olan şəxslər və vaksinlər virusu nisbətən yüngül keçirməyə imkan yaradır. Lakin bu, bizi qətiyyən arxayın salmamalıdır. Ona görə hesab edirəm ki, yeni sürprizlərə hazır olmalıyıq. Bu virus dünyaya geniş şəkildə yayılsa, yeni qadağalara gətirib çıxara bilər".

A.Qeybulla mutasiya prosesinin davam etdiyini və yeni bir ştammın da üzə çıxdığını bildirib: "Hazırda Cənubi Amerikada "Lambda" ştammı yayılıb. Düzdür, bu ştamm "Delta+" kimi çox yoluxucu deyil. Amma "Delta+" ştammı çox yoluxucudur və öldürücülük qabiliyyəti yüksəkdir".

✍ **Banu**

## Mədəniyyət



**Daşları canlandırıb onlara nəfəs verən heykəltəraşlar tarix boyu çox qiymətli sənət nümunələri ilə məşhurlaşıblar. Bu sənətin tarixi dünyada, eləcə də ölkəmizdə lap qədim zamanlara qədər dayanır. Qədim Oğuz yurdu olan Qərbi Azərbaycan ərazisində müxtəlif çeşidli abidələr olub ki, onu tarixin bəzi çağlarında heykəltəraşlarımız yaradıb.**

Hafta.az bu qədim sənətin günümüzdəki vəziyyəti ilə bağlı Xalq rəssamı, professor Akif Əsgərov ilə həmsöhbət oldu. Professor deyir ki, sovet dövründə heykəltəraşlıqla bağlı Bədii Şura yaradılmışdı. Elə buna görə də görülən işlər çox uğurlu olurdu:

"O vaxt mən bölmə komissiyasının sədri olmuşam. Hər həftədə bir dəfə komissiyanın üzvləri yığıncaq keçirir, həftə ərzində heç olmasa 5 heykəl hazırlanırdı. Kimlərin işi yox idisə, onlara tapşırıqlar verilirdi. O vaxt heykəltəraşlara iş verilirdi. Adam da heykəlin qoyulacağı yerə baxış keçirib layihə tərtib edirdi. Beləcə, bütün proseslər tam incəliyinədək diqqətlə təşkil olunurdu. Heykəltəraş heykəli hazır edəndə Bədii Şura ona baxış keçirib, qiymətləndirmə aparırdı. Lazım olan dəyişikliklər əlavə edilirdi. Buna görə də həmin dövrdə qoyulan abidələr çox yüksək səviyyədə idi. İndiki zamanda da Bədii Şuranın mövcudluğunu zəruri hesab edirəm".

# Gənc heykəltəraşlar iş tapa bilmir

Həmçinin mütəxəssis həmin dövr heykəltəraşlıq nümunələrini indiki ilə müqayisədə daha uğurlu hesab etdiyini vurğuladı: "Əvvəllər bu sahə daha çox inkişaf etmişdi, buna görə də heykəltəraşların əl işləri də olduqca uğurlu idi. Həmin dövrlərdə Bakıda Fuad Əbdürrəhmanovun qoyduğu Nizami Gəncəvinin heykəli kimi sənət nümunəsi indi də varmı? Çətin ki tapıla. Bədii Şura yoxdur deyə, olacağına da inanmıram. Həmçinin bu gün heykəltəraşlara gördükləri iş müqabilində yüksək məbləğdə ödəniş edilməlidir. Heykəl üçün verilən pulla onun bütün materialları alınır. Əvvəllər isə yüksək məbləğdə ödəniş edilir, üstəlik, materiallar da verilirdi. İndi də peşəkar heykəltəraşlarmız var, buna baxmayaraq sifarişlər yoxdur. Təbii ki, hər şeyi dövlətdən gözləmək olmaz".

A.Əsgərov hazırda ölkəmizdə çoxlu sayda peşəkar heykəltəraşın olduğunu, peşəkar kadrların gələcəyi ilə bağlı narahatlığını dilə gətirdi: "İndi bizim işdə olduqca uğurlu tələbələrimiz var. Çoxu da məzun olduqdan sonra öz rayonuna qayıdır, başqa işlərdə çalışmağa məcbur olur. Bu məni çox narahat edir. İstərdim, bütün peşəkar tələbələrim əvvəllər mövcud olmuş imtiyazlardan yararlana bilsin. Ev, emalatxana ilə təmin olunsunlar.

*"İstərdim, bütün peşəkar tələbələrim əvvəllər mövcud olmuş imtiyazlardan yararlana bilsin"*

Rəssamın təhsilini bitirdikdən sonra öz hesabına emalatxana açması çox çətin məsələdir. Tələbələrim Təbriz, Müstəqil və Leyla şəhərdə qoyulan abidələrdən heç də geri qalmayan işlər ərsəyə gətiriblər. İstəmərəm ki, belə istedadlar məhv olub getsin.

Əgər bir heykəltəraş işində məsuliyyətli və bacarıqlıdırsa, ona əziyyət çəkməyə dəyər. Onlar bizim gələcəyimizdir. Ölkəmizi xaricdə layiqincə təmsil etmək gücünə sahibdirlər. Ölkəmizdə peşəkar heykəltəraş yetişdirmək üçün akademik təhsil olduqca yüksəkdir. Tələbələr üçün yüksək səviyyəli təhsil təşkil edilir. Bəhrəsini də görürük".

✍ **Banu**

# 16 min 295 tibb işçisi COVID-19 virusuna yoluxub

**Səhiyyə Nazirliyi tərəfindən ölkədə yayılmış COVID-19 virusunun qarşısını almaq üçün əhaliyə göstərilən təcili tibbi yardım və stasionar müalicə xidmətlərinə dəstək vermək məqsədilə ilkin səhiyyə xidmətlərinin gücləndirilməsi haqqında verilmiş tapşırığa əsaslanaraq 30 iyun 2020-ci il tarixində COVID-19-la mübarizə İşçi Qrupu yaradılıb.**



Səhiyyə Nazirliyindən hafta.az-a verilən məlumata görə, İşçi qrupunun yaradılmasından bir il ötür. Bununla əlaqədar, Səhiyyə Nazirliyində İşçi Qrupunun hesabat iclası keçirilib.

Tədbirdə COVID-19-la mübarizə çərçivəsində xidmət göstərən COVID- məntəqələrinin, çağrı mərkəzlərinin, Təcili və Təxirəsalınmaz Tibbi Yardımın hesabatları təqdim olunub.

Bakı Baş Səhiyyə İdarəsinin İnformatika və tibbi statistika sektortorunun müdiri İradə İsmayılova il ərzində görülmüş işlərin hesabatından bəhs edib. Diqqətə çatdırılıb ki, il ərzində 149 min 399 xəstə evdə nəzarətə götürülüb. Çağrı mərkəzinə 112 min 981 zəng daxil olub. Ölkə üzrə ümumi 16 min 295 tibb işçisi COVID-19 virusuna yoluxub. Onlardan 4658 həkim, 6224 orta tibb işçisi, 5408 digər tibb işçiləridir.

Eyni zamanda, son bir il ərzində həm COVID-19-la mübarizədə, həm də Vətən müharibəsində xidmət edən tibb işçilərinin fəaliyyətindən danışılıb. Ötən ilin səhiyyə sistəmi üçün nə dərəcədə məsuliyyətli olduğu qeyd edilib. Hər iki cəbhədə xidmət zamanı dünyasını dəyişən fədakar tibb işçiləri yad edilib. Sonda İşçi Qrupunda fəaliyyət göstərən Səhiyyə Nazirliyi, Bakı Baş Səhiyyə İdarəsi və İctimai Səhiyyə və İslahatlar Mərkəzinin işçilərinə təşəkkür edilib.

# Şəhər poliklinikaları iki hissəyə bölünəcək

**Şəhər poliklinikaları iki hissəyə bölünəcək. İlkin səhiyyə xidməti göstərənlər bir poliklinikada, dar ixtisas sahibləri isə digərində cəmləşəcək.**



Bunu Kliniki Tibbi Mərkəzin direktoru Könül Ələkbərov deyib. Onun sözlərinə görə, burada əsas məsələ sahə prinsipinə əməl olunmasıdır. Belə ki, sahə pediatrları, terapevtlər və digərlərinə əlçatanlığın təmin olunması üçün onlar inzibati ərazi üzrə bərabər bölüşdürüləcək:

"Ailə Sağlamlıq Mərkəzi olmağa uyğun olmayan poliklinikalarda isə dar ixtisas sahibləri birləşəcək və öz rayonları üzrə tibb mərkəzlərinə tabe olacaqlar. O cümlədən Səbail, Yasamal və Nəsimi rayonlarının ərazisində yerləşən poliklinikaların dar ixtisas həkimləri Kliniki Tibbi Mərkəzə tabe ediləcək".



**■ Yeni tarif mərkəzləşdirilmiş istilik sisteminin gələcəkdə bir qədər də inkişaf etməsinə gətirib çıxardacaq. Bunu SOCAR-ın "Azəriqaz" İstehsalat Birliyinin baş direktoru Ruslan Əliyev deyib.**

Onun sözlərinə görə, mərkəzləşdirilmiş istilik sistemi artıq dünyanın bir çox ölkəsində istifadə edilir. Bu sistemin fərdi isitmə sistemlərindən fərqi təkcə təbii qaza olunan qənaət deyil, həm də ekoloji cəhətdən bir çox üstünlüyü var. Ruslan Əliyev bildirib ki, bu gün "Azəriqaz"ın təxminən 2,4 milyon abunəçisi var və bunun 1,3 milyonu təbii qazdan 1 200 kubmetrlik limit çərçivəsində istifadə edəcək, yəni qazın hər kubmetrini 10 qəpikdən əldə edəcək.



**■ Lənkəran rayonunda meşə fondunun açıq sahələrinin potensialından səmərəli istifadə etmək məqsədilə açıq meşə fondu torpağı Kənd Təsərrüfatı Nazirliyinin müraciəti əsasında çayçılığın inkişafı məqsədilə çay bağının salınması üçün "Beta Tea" şirkətinə qanunauyğun şəkildə icarəyə verilib.**

Bu barədə Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Meşələrin İnkişafı Xidmətindən məlumat verilib. Xidmət rəisi Namik Xıdırovun sözlərinə görə, ərazi kolkos basmış quru sahələrdən və talalardan ibarət olub, ərazidə ağac kəsilməsi faktı olmayıb, olmayacaq. "Ağacların məhv edilməsindən söhbət gedə bilməz.



**■ Elektrik enerjisinin ölkədaxili tariflərinin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının 2016-cı il 28 noyabr tarixli 17 nömrəli Qərarında dəyişiklik edilib.**

Hafta.az xəbər verir ki, dəyişikliyə əsasən gün ərzində yük tələbatı stabil olan, istehsal məqsədləri üçün orta aylıq enerji istehlakı 5 milyon kVts-dan az olmayan məlumatların emalı, qeydə alınması və ötürülməsi üzrə fəaliyyət göstərən məlumat mərkəzlərində gecə-gündüz rejimi tətbiq edilib. Beləliklə, bundan sonra elektrik enerjisinin 1 kVt/saat-nın qiyməti saat 08:00-dan 22:00-a qədər 7,3 qəpik, saat 22:00-dan 08:00-a qədər isə 3,5 qəpik müəyyən edilib. Qərar iyulun 1-dən qüvvəyə minir.



**■ "Gürcüstana oynadığı konstruktiv rola görə minnətdarıq". Bunu NATO Baş katibinin Cənubi Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Ceyms Appaturay Gürcüstanın İctimai telekanalına müsahibəsində deyib.**

Onun sözlərinə görə, İkinci Qarabağ müharibəsindən sonra regionun təhlükəsizlik vəziyyəti əsaslı şəkildə dəyişib: "Gürcüstan hökuməti Azərbaycan və Ermənistanın minalanmış ərazilərin xəritəsinin və saxlanılanların mübadiləsinə dair razılaşmanın əldə edilməsində çox vacib rol oynadı. Gürcüstan regional təhlükəsizlik üçün nə qədər dəyərli olduğunu göstərib". Xüsusi nümayəndə qeyd edib ki, bu gün NATO baş katibi ilə Gürcüstanın müdafiə naziri arasında baş tutan görüşdə regionda təhlükəsizlik vəziyyətinə dair müzakirə aparılıb.



**■ Kataloniyanın İspaniyanın tərkibindən çıxması barədə referendum olmayacaq. Bu barədə İspaniyanın Baş naziri Pedro Sançes parlamentin aşağı palatası - Deputatlar Konqresində çıxış edərkən deyib.**

"Müstəqillik barədə referendumu dəstəkləyənlər bu palatanın beşdən üç hissəsini xalqının birliyinə dair konstitusiyanın ikinci maddəsini dəyişməyə inandıra bilməsə və sonra ispanlar bu dəyişikliyi referendum vasitəsilə təsdiqləməsə, heç bir referendum olmayacaq", - deyə İspaniya hökumətinin başçısı bildirib. O, həmçinin lideri olduğu İspaniya Sosialist Əmək Partiyasının referendumun keçirilməsinə heç vaxt razı olmayacağını da vurğulayıb.




**■ Məhəllə qazanxanaları üzrə təbii qaz və ictimai nəqliyyatda istifadə olunan sıxılmış təbii qazın qiyməti aşağı salınıb. Bununla bağlı Tarif Şurası qərar qəbul edib.**

Qərarda qeyd olunur ki, təbii qaz əsasında fəaliyyət göstərən istilik təchizatı sisteminin fəaliyyətinin dayanıqlığının təmin edilməsi, habelə ölkə vətəndaşlarının istilik sistemindən istifadə xərclərinin optimallaşdırılması məqsədilə "Azəristiliktəchizat" ASC və yaşayış binalarının məhəllə qazanxanaları üzrə təbii qaz tarifi 20 qəpikdən 13 qəpiyə endirilib. Bununla yanaşı, ekoloji təmiz yanacaq növlərinə keçidi stimullaşdırmaq və sıxılmış təbii qazdan (CNG) istifadə edən ictimai nəqliyyat vasitələrinin xərclərini azaltmaq məqsədilə qazın satışını həyata keçirən qazdoldurma məntəqələrinə verilən təbii qazın tarifi 20 qəpikdən 13 qəpiyə endirilib.

# Ədviyyatlar

## Menyu

***Ədviyyatlar - çeşidli bitkilərin toxum, çəyirdək, meyvə, çiçək, qabıq, kök, yarpaq kimi hissələrinin bütöv, üyüdülərək, parçalanmış, yaxud qurudulmuş formaları ilə qidalara xüsusi qoxu, rəng və dad bəxş edən bitkilərdir. Qidalara az miqdarda qatılmasına baxmayaraq, dad və qoxularını dəyişməyə kifayət edir.***



### Sağlıq üçün faydalı qida

Ədviyyatların tarixi qeydlərə düşəndən daha əvvəllərə söykənir. Belə ki, araşdırmalara görə, hələ ilk insanlar qidanı bişirərək istifadə etməyə başlayanda dadlandırıcı kimi ona ədviyyat əlavə ediblər. Bəzi mənbələrdə isə ilk vaxtlar ədviyyatdan ətin xarab olmaması və xarab olmuş məhsulun pis qoxusunu ört-basdır etmək məqsədilə istifadə olunduğu söylənir. Bu gün ədviyyatlardan daha çox Hindistanda istifadə olunur. Avropa və Amerikada, xüsusən də İtaliya və Fransa mətbəxlərində ədviyyat böyük rola malikdir. Elə qardaş ölkə Türkiyə də ondan çox istifadə edən ölkələr sırasındadır. Milli mətbəximizdə isə bu rəngarəng bitki nümunələri yeməklərimizə daha da ləzzət qatır. Hafta.az əməkdaşı bu möcüzəvi dadlandırıcılar haqqında araşdırma aparmaq məqsədilə ilk olaraq satış obyektlərinə üz tutdu. Uzun müddət ədviyyat satışı ilə məşğul olan Kamil bəy bildirdi ki, məhsulların yüksək əksəriyyəti xaricdən gətirilir. Ən çox alınanları isə sarıkök, istiot, zəncəfil çörəkotu və darçındır. Qiymətləri də bir xeyli müxtəlifdir:

"Sarıkökün qiyməti 2 manatdan 20 manata qədər dəyişir. Ən bahalı olanlar tərkib etibarı ilə daha keyfiyyətli və qatqısızdır". Keyfiyyətlərinə gəldikdə isə satıcı bildirdi ki, toz halında satılan ədviyyatlara istənilən əlavə qatqıları vurmaq mümkündür. Üstəlik, təəssüflər olsun ki, hazırda belə məhsullar satışda çoxluq təşkil edir: "Bəzən deyirlər ki, sarıkökün tərkibinə rəngli karandaşı yontayıb tozunu əlavə edirlər. Karandaş tozunun qiymətini kilo ilə hesablasaq gəlib sarıkökdən baha çıxır. Buna görə də, adətən ədviyyatların tərkibinə noxud və qarğıdalı üyüdüb qatırlar. Bunu da çox adam heç hiss etmir.

Başa düşmək üçün gərək ondan başın çıxa. Bir də yeməyə tökəndə qoxusundan və rəngindən ədviyyatın qatqısı olduğunu anlamaq olar. Çörəkotunu üyütdükdə tez xarab olur. Buna görə də o bütöv halda satılır və tərkibini dəyişdirmək mümkün olmur".



Hazırda insanların ən çox aldığı ədviyyatlardan biri də kəklikotudur. Xalq arasında qısaca kəkotu da adlanır. Azərbaycan çəmənlərində və meşələrində yazda yarpaqlayan və xoş qoxusu olan otdur. Kəklikotunun Azərbaycanda bir neçə növü yayılıb. Onun həm çayını dəmləyib içirlər, həm də müxtəlif yeməklərdə istifadə olunur.

Onların xoş ətri dad və rəngindən bəhs etdik. Lakin ən əsas özəlliklərindən biri də müalicəvi olmalarıdır. Belə ki, ədviyyatlar ürək-qan-damar, mədə-bağırsaq problemləri, yuxusuzluq və sair kimi bir sıra narahatlıqları aradan qaldırmağa kömək edir.

Misal olaraq deyə bilərik ki?mətbəximizdə sıxlıqla istifadə olunan cirə öskürəyə, mədə bağırsaq pozulmalarına olduqca faydalıdır. Mixək isə ağrıkəsici özəlliyə malikdir. Həmçinin o həzm sisteminin fəaliyyətini yaxşılaşdırır. Darçın bağırsaların yaxşı işləməsinə xidmət edir, həzmi asanlaşdırıb qan dövranını sürətləndirir. Hil özünün antibiotik xüsusiyyətləri ilə daha çox seçilir. Bu səbəbdən də o sidik yolları infeksiyası ilə mübarizədə faydalıdır.

Bir digər ədviyyat olan zəfəranın isə faydalarını saymaqla bitməz. Nəzərinizə çatdıraq ki bu bitki hələ orta əsrlərdə müalicə vasitəsi kimi istifadə olunurdu. İnkişaf edən elm isə sübut etdi ki, zəfəran ürək, mədə və qaraciyərin fəaliyyətinə faydalıdır. Həmçinin o, yuxugətirici özəllikləri ilə də seçilir.

Kəklikotunun da müalicəvi xüsusiyyətləri var. Onu suda qaynadılmaqla əldə olunmuş məhlulundan soyuqdəymənin və bağırsaq xəstəliklərinin müalicəsində istifadə olunur. Kəklikotu iştahanı yaxşılaşdırır, həzmə kömək edir, mədəni və ciyəri təmizləyir, ağciyərlər üçün xeyirlidir. Kəklikotu çiçəyinin sirkə və duzla qarışığını ödqovucu vasitə kimi qəbul edirlər. Bu bitkinin həlimi qarında spazmanı götürür, qurdları çıxardır, həzmə kömək edir. Kəklikotu və baldan hazırlanmış məlhəmi zəhərli cücülərin dişlədiyi yerin üzərinə qoyurlar. Kəklikotunun əncirlə qarşdırılmış həlimini astma və öskürəkdə çox xeyirlidir. Kəklikotu təzə pendirlə yeyilsə insanı kökəldir. Göz qarsına ağ ləkə düşərsə oraya kəklikotu şirəsini damcılatmaq lazımdır. Kəklikotu yarpaqlarının bal ilə ovxalanmış məlhəmi bərk şişləri sovurur, oturaq sinirin iltihabında xeyirlidir.

Sonda bir məqamı da diqqətinizə çatdırmasaq işimiz yarım qalar. Faydalarını sadaladığımız ədviyyatlar artıq istifadə edildikdə və xronki xəstəliklər zamanı orqanizmə xeyirdən çox ziyan vura bilir. Ona görə də yaxşı olardı ki, ədviyyatlardan istifadə zamanı məsləhət alınsın.

✍ **Banu**

# "Amman, 100 illik yürüş" və ya genişlənən əlaqələrin başlanğıcı

Mədəniyyət



***İordaniya Haşimilər Krallığının ölkəmizdəki səfirliyi, Amman Şəhər İcra Hakimiyyətinin və İMM-in birgə təşkilatçılığı ilə Bakı Fotoqrafiya Evində İordaniya dövlətinin yaradılmasının 100 iııiyinə həsr olunmuş "Amman, 100 illik yürüş" adlı fotosərgi təşkil edilib.***

Hafta.az-ın yazdığına əsasən, Azərbaycanda akkreditə olunmuş müxtəlif ölkələrin diplomatik nümayəndəliklərinin rəhbərləri, mətbuatın və sair iştirakı ilə keçirilən bu mədəniyyət tədbiri, Azərbaycanla İordaniya aarsında mövcud olan dost əlaqələrin bariz göstəricisidir. İyunun 30-dan iyulun 4-dək davam edəcək fotosərgidə nümayiş olunan, siyasi, tarixi və mədəni əhəmiyyətə malik Amman şəhərinin son 100 illik dövrünü tərənnüm edən 40 fotoşəkil üzərindən bu əsrarəngiz şəhərə qiyabi səfər edə bilərsiniz. Burada həmçinin, paytaxtın və onun sakinlərinin mədəniyyətini əks etdirən bir çox tarixi və memarlıq abidələrin əks olunduğu fotolarla da tanış olmaq mümkündür.

Sərginin açılığında Amman şəhərinin meri Yusif Şavarbenin tədbir iştirakçılarına ürək sözlərini səsləndirən video-rolik göstərilib.

Haşimilər Krallığına həsr olunmuş müxtəlif sənədli filmlər və ölkənin milli musiqisi ilə müşayiət olunan sərginin açılışında çıxış edən İoraniyanın ölkəmizdəki səfiri Sami Asem Ğoşeh bildirib ki, yaxın gələcəkdə daha bir mədəniyyət tədbiri keçirmək fikrindədirlər.

"Azyaşlı uşaqlar arasında rəsm müsabiqəsi təşkil edəcəyik. Hətta müsabiqənin adını da söyləyə bilərəm - İordaniya uşaqların gözü ilə". Çalışacağıq ki, ölkəmizin mədəni zənginliyi təşviq eləmək istiqamətində tədbirlərin sayını artıraq", - deyib İordanıyanın ölkəmizdəki səfiri.

Səfir deyib ki, o cümlədən, dünyanın tarixi incisi sayılan itmiş şəhərin - Petranın tədqiqatlarına və təşviqinə hesablanmış prosesləri sürətləndirmək üçün addımlar atacaqlar: "Bilirik ki, Azərbaycanlı turistlər - qardaşlarımız, dostlarımız İordaniyanın tarixi zənginliyinə çox böyük maraq göstərirlər. Hazırda ölkələrimiz aarsında mədəniyyət sahəsində imzalanmış bir sıra protokollar mövcuddur. Çalışacağıq həmin protokolları bənd-bənd icra edək.

Düzdür, iki ilə yaxın bir müddətdir davam edən koronavirus pandemiyası işlərimizi bir az ləngitdi, amma yaxın gələcəkdə Azərbaycanda İordaniya Mədəniyyət Günlərinin, eləcə də, İordaniya Haşimilər Krallığında Azərbaycan Mədəniyyət Günlərinin keçirilməsinə nail olacağıq. Biz turizm sahəsində əməkdaşlığı genişləndirməyə çalışırıq. Turizmin inkişafı ilə yanaşı, Bakı-Əmman birbaşa hava reysinin açılması barədə də razılığa gəlmişik.

İlk uçuşlar ötən ilin iyul ayında olacaqdı. Təbii ki, pandemiya səbəbindən proses indiyədək təxirə salınıb. Amma hesab edirəm ki, koronavirus təhlükəsi səngiyən kimi biz bu prosesi başa çatdıracağıq", - deyən səfir onu da qeyd edib ki, birbaşa aviareyslərin açılması ölkələrimiz arasında gediş-gəlişin həcmini də artıracaq.

Nəticədə isə insanlar ölkələrimizin zəngin tarixi və təbii abidələrini görəcəklər, xalqlarımızın mənsub olduğu milli mədəniyyətə, məişətə bələd olacaqlar.

✍ ***Vüsal Tağıbəyli***

# Nizami Gəncəvi mədəni inteqrasiyaya böyük töhfələr verib

**Görkəmli şair, alim və mütəfəkkir Nizami Gəncəvi Qərblə Şərq arasında mədəni inteqrasiyaya böyük töhfələr verib. Bu sözləri AZƏRTAC-a müsahibəsində Çin Xalq Xarici Əlaqələr İnstitutunun prezidenti Vanq Çao bildirib. O, Nizami Gəncəvinin Çində də çox yaxşı tanındığını, Çin xalqının şairə ehtiramını nümayiş etdirmək üçün 2012-ci ildə Pekinin Çaoyan parkında abidəsinin qoyulduğunu vurğulayıb.**

Vanq Çao dahi şairin əsərlərində təbliğ olunan xalqlar və mədəniyyətlər arasında dialoq, tolerantlıq kimi ümumbəşəri dəyərlərin daha geniş miqyasda dünyaya çatdırılması işinə xidmət edən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin Azərbaycan Prezidenti İlham Əliyevin diqqəti və böyük dəstəyi ilə müxtəlif sivilizasiyalar arasında dialoqun və anlaşmanın təşviqində getdikcə daha vacib rol oynadığını, xalqlar arasında diplomatiya ilə məşğul olan dünya şöhrətli təşkilata çevrildiyini deyib.

Rəhbərlik etdiyi Çin Xalq Xarici Əlaqələr İnstitutunun Nizami Gəncəvi Beynəlxalq Mərkəzi ilə 2017-ci ildən əməkdaşlığa başladığını bildirən Vanq Çao deyib: Bu məhsuldar əməkdaşlıq iki xalq arasında dostluğa böyük töhfələr verib. Bizim fəaliyyətimiz dövlətlərimizin rəhbərləri tərəfindən yüksək qiymətləndirilib və dəstəklənib. Mənim sələflərim Mey Caoron və U Haylon müxtəlif illərdə Bakı Qlobal Forumunda iştirak ediblər. Azərbaycan Prezidenti İlham Əliyevin 2019-cu ilin martın institutumuzun nümayəndə heyətini qəbul etməsi bizim üçün böyük şərəfdir.



Vanq Çao bildirib ki, 2019-cu ilin iyununda Çin Xalq Xarici Əlaqələr İnstitutunun birgə təşkilatçılığı Pekində Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin ali səviyyəli toplantısı keçirilib. Çinin vitse-prezidenti Van Çişan toplantı iştirakçıları ilə görüşüb. Mərkəzin üzvləri olan Avropanın sabiq dövlət adamları həm də Çin Xalq Xarici Əlaqələr İnstitutunun köhnə dostlarıdır. Həmin şəxslər Çin rəsmiləri, alim və tədqiqatçıları ilə fikir mübadiləsi aparıb, Çin ilə dünya ölkələri arasında qarşılıqlı fəaliyyətə kömək etmək, qlobal idarəetmə sistemini təkmilləşdirmək, qloballaşmaya və çoxqütblülüyə kömək etmək üçün yeni ideyalar irəli sürüblər. Bütün bunlar Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin böyük dəstəyi olmadan mümkün olmazdı.

Müsahibimiz COVID-19 pandemiyasının canlı ünsiyyətə mənfi təsir göstərdiyini, bununla belə rəhbərlik etdiyi institutun mərkəzlə əməkdaşlığının dayanmadığını deyib: "Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvləri ötən il virus yayılmağa başlayanda Çinə dəstək məktubu göndərib, habelə ölkəmizə epidemiya əleyhinə vasitələr ianə edib. Bütün bunlara görə çox minnətdarıq. Bundan başqa, pandemiya dövründə Nizami Gəncəvi Beynəlxalq Mərkəzi ilə keçirdiyimiz videokonfranslar zamanı pandemiyaya qarşı mübarizə tədbirlərini, vacib məsələlərə dair beynəlxalq vəziyyəti müzakirə etmişik. Mən bir daha vurğulamaq istərdim ki, Çin Xalq Xarici Əlaqələr İnstitutu həmişə Nizami Gəncəvi Beynəlxalq Mərkəzi ilə münasibətlərinə böyük əhəmiyyət verib, dostcasına təmaslarımızın və əməkdaşlığımızın genişləndirilməsini davam etdirməyə hazırdır. Biz bunun sayəsində sivilizasiyalararası mübadilələrə və qarşılıqlı anlaşmaya, eləcə də bütün dünyada sülhün və inkişafın təmin olunmasına öz töhfəmizi verməyə ümid edirik. Mən ötən ilin martında Bakı Qlobal Forumunda iştirak etmək üçün Azərbaycana səfər etməli idim, lakin bu səfər pandemiyaya görə alınmadı. Bakı Qlobal Forumunda iştirakımı səbirsizliklə gözləyirəm".

ELAN

**Hörmətli "Nar" abunəçiləri!**

**09.07.2021 tarixindən başlayaraq "Asan İmza" xidmətini istifadə edən abunəçilər mövcud SIM kartı dəyişmədən xidmətinin etibarlılıq müddətini SMS vasitəsilə uzada bilərlər. Bunun üçün "8500" qısa nömrəsinə uyğun açar sözündən ibarət SMS göndərilməlidir. Daha ətraflı məlumatı https://www.nar.-az/asanimza/ səhifəsindən əldə etmək olar.**

## GÜNÜN FOTOSU



Komandalarının qələbəsinə sevinən çılğın ingilis azarkeşləri...

## "RESM" - dünyaya çıxan qızıl brendimiz

**Rəsminə Qurbanova,** Azərbaycan zərgərlik brendinin təsisçisi və dizayneri

Azərbaycan istehsalı olan məhsullara daha çox hansı ölkələrdən maraq göstərilir?

Səh. 6

## STATİSTİKA



■ Rusiyanın 5000 rubl dəyərində olan pul nominalının ümumi çəkisi 1,02 qramdır. Beləliklə, 5000 rubl nominalından ibarət 1 milyon rublun ümumi çəkisi 204 qram təşkil edir.

■ Dünyada ən güclü pul inflyasiyası Zimbabvedə yaşanıb. Burada milli valyuta ildə 321 milyon faiz dəyər itirib. Nəticədə ölkə özünün milli valyutasından imtina edərək ABŞ dollarını əsas pul vahidi kimi tanıyıb.

■ Keçən əsrin 60-cı illərində 1 rubla 1 qram qızıl almaq mümkün idi.



Səh. 7

## "Hindistan ştammı" - ölkəmiz üçün təhlükə varmı?